## Makron üçün yolun sonu görünməkdədir

Onun istefaya göndərilməsi üçün mümkün olan hər şeyi edəcəklər



**Son illərdə Azərbaycana qarşı açıq şəkildə düşmənçilik siyasəti yürüdən Fransa Prezidenti Emmanuel Makron üçün yolun sonu görünməyə başlayıb.**

Bunu hazırda Fransada yaşanan ciddi siyasi böhranın və ya siyasi zəlzələnin nəticələrindən də görmək mümkündür. Fransanın Baş naziri Mişel Barnyenin bu gün Yelisey Sarayına gələrək istefa ərizəsini Prezident Makrona təqdim etməsi sözügedən siyasi böhranın "pik" nöqtəsidir.

(səh.2)



## "Diplomatik xidmət haqqında" qanun layihəsi müzakirə olunacaq

**Milli Məclisə "Diplomatik xidmət haqqında" qanun layihəsi daxil olub.**

Qanun layihəsi dekabrın 9-da parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin birgə iclasında müzakirə olunacaq.

❒ № 225 (6226) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 dekabr 2024-cü il (şənbə)



## Gediş haqqı 80 qəpikdir

Bakı- Sumqayıt marşrutu 8 dəqiqəlik intervalla hərəkət edəcək

**594 nömrəli Bakı-Sumqayıt ekspres marşrutu üzrə sərnişinlərin daşınması "BakuBus" MMC-nin 17 "Neoplan" markalı avtobusları ilə 8 dəqiqəlik hərəkət intervalı ilə həyata keçiriləcək.**

AYNA xəbər verir ki, Sumqayıt Avtovağzalından yola düşən avtobusların aralıq dayanacaq məntəqələri "Bağça Şəhər" yaşayış kompleksi, Sumqayıt dairəsi və Ceyranbatan qəsəbəsi, son dayanacağı isə "20 Yanvar" metrostansiyası ("Azərsu" ASC-nin inzibati binasının yaxınlığı) təyin edilib.

Əks istiqamətdə isə başlanğıcını metrostansiyanın Sumqayıt istiqamətinə olan çıxışında götürən avtobuslar marşrut üzərindəki eyni dayanacaqlarda saxlamaqla hərəkət edəcək.

Sumqayıtdan avtobusların ilk çıxışı saat 05:50, Bakıdan saat 06:20-də, son çıxışı isə Sumqayıtdan saat 22:30, Bakıdan saat 23:00-dadır.

Ekspres xətt üzrə gediş haqqı 0.80 AZN müəyyən edilib və ödənişlər nağdsız qaydada həyata keçiriləcək.



## Ermənistan Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır

2025-ci il sülh danışıqlarında bu məsələ də müzakirə edilməli, gündəliyə salınmalıdır

**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransın yekun sənədi qəbul edilib.**

Konfransın yekun sessiyasında sənədi Polşadan olan iştirakçı, Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba oxuyub. Qeyd olunub ki, aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı "Qayıdış hüququ.

(səh.2)

## Yeni il bayramı ərəfəsində ətin qiyməti bahalaşmayacaq

Qiymət artımı əsasən Novruz bayramı və Qurban bayramında baş verir



**Son illərdə respublikamızda qoyunçuluğun inkişaf dinamikasında azalma müşahidə edilib.**

Statistikaya görə, bu ilin yanvar-sentyabr aylarında xırdabuynuzlu heyvanların sayı təxminən 7 milyondan bir az artıq olub. Bölgələrdə 3-4 aylıq quzuların kəsimə verilməsi, damazlıq genefondunun azalmasına səbəb olur. "İTV Xəbər"ə məlumat verir ki, alıcılar da daha çox yaşı az olan quzuların ətini almağa üstünlük verdiklərini deyirlər. Onlar seçimlərini aşağı çəkili quzuların ətinin daha dadlı olması və tez bişməsi ilə əlaqələndirirlər.

(səh.5)

# Ermənistanın iddiası yalandır

Türkiyə dronları bəlli sərhəddə müşahidə aparır



✓ **Ermənistan əraziləri Avropanın, İranın, ABŞ-nin müşahidəçiləri ilə dolub-daşıdığı bir mühitdə Türkiyə ordusunun buna nəzarət etmək məsələsi təbiidir**

**Türkiyəyə məxsus dronların Ermənistanla sərhəddə yerləşən Ararat vilayətinin Armaş qəsəbəsində naməlum uçuş həyata keçirdiyi iddia olunur. "Hraparak" nəşri dronların bir neçə ərazidə göründüyünü bildiriblər.**

Qəzet məsələ ilə bağlı ordudakı mənbələri ilə əlaqə saxlayıb. Məlumatın doğru olduğu, hər gün bir dəfə dronun sərhədi keçərək Ermənistan ərazisindəki mövqeləri lentə aldığı qeyd edilib. İddiaya görə, sərhədçilər dəfələrlə Müdafiə Nazirliyinə məsələ ilə bağlı məlumat veriblər. Hətta dronu zərərsizləşdirmək üçün müraciət ediblər. Lakin buna icazə verilməyib və ona toxunulmamaq tapşırılıb.

(səh.4)

# Bakıdan Trampa jest

Blinken oyundankənar vəziyyətə salındı



**ATƏT Xarici İşlər Nazirləri Şurasının Maltada keçirilən 31-ci iclasında Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçirilməyib.**

Ermənistan XİN-in sözçüsü Ani Badalyan erməni tərəfinin görüşə razılıq verdiyini deyib. Yayılan xəbərə görə, ABŞ Dövlət katibi Antoni Blinken ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edib.

(səh.3)



## Akopyanın hakimiyyətə gətirilməsi mümkündür

Ancaq erməni cəmiyyəti onun siyasi meydana atılmasını təqdir etməyəcək

**Hökumət komandası deyir ki, növbəti seçkilərdə onun siyahısına Ermənistan Baş nazirinin xanımı Anna Akopyan başçılıq edəcək. Bu barədə "Hraparak" qəzeti məlumat yayıb.**

"Onun hiperaktivliyinə səbəb olan da məhz budur. Hökumətdə onun ofisi, işçi heyəti və piar komandası var. O, nəinki yerli və xarici qonaqları qəbul edir, müxtəlif tədbirlər təşkil edir, həm də heç bir vəzifəsi olmadan dövlətin kadr siyasətini həll edir", - məlumatda deyilir.

(səh.5)

## Ailələri ilə əlaqə üçün şərait yaradılıb

BQXK Bakıda həbsdə olan Qarabağ separatçılarına baş çəkib



**Dekabr ayında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkiblər.**

Bunu BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib. Məlumata görə, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb. "Mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir", məlumatda deyilir.

## Məktəbdə təcrübə zamanı müəllim və şagirdlər yaralandı



**Dünən Şəki şəhər Fizika-riyaziyyat və humanitar təmayüllü liseydə xoşagəlməz hadisə yaşanıb.**

"Azərbaycan müəllimi" xəbər verir ki, kimya kabinetində 11-ci sinifdə keçirilən dərs zamanı sınaq şüşəsi çatlayaraq sınıb. Bu zaman fənn müəllimi və 4 şagird yüngül xəsarət alıb. Şəki-Zaqatala Regional Təhsil İdarəsindən bildirilib ki, buna səbəb təcrübə aparılarkən kimyəvi reaksiya ilə əlaqədar olaraq yaranan qızma olub. Dərhal təcili tibbi yardıma müraciət olunub, müəllim və şagirdlərə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıblar.



## ATƏT-in fəaliyyətsizliyi çoxdan sübut olunub

Lavrov şəraitdən yararlanaraq, sadəcə, vaxtı ilə Bakının səsləndirdiyi fikirləri təkrarladı

(səh.3)



## Suriya bir neçə yerə parçalanacaq

Türkiyə bölgədə, qonşularında qeyri-sabitliyin və gərginliyin olmasında maraqlı deyil

(səh.5)

# Ermənistan Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır

## 2025-ci il sülh danışıqlarında bu məsələ də müzakirə edilməli, gündəliyə salınmalıdır



**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransın yekun sənədi qəbul edilib.**

Konfransın yekun sessiyasında sənədi Polşadan olan iştirakçı, Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba oxuyub. Qeyd olunub ki, aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin olunması" mövzusunda İkinci Beynəlxalq Konfransda toplaşıblar. Ermənistandan məcburən çıxarılmış azərbaycanlıların qayıdış məsələsini və qlobal miqyasda məcburi köçkünlük problemini müzakirə ediblər. İştirakçılar bildiriblər ki, azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlikdir. Vurğulanıb ki, Ermənistanın zorla çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri dönməsinə icazə verməkdən imtina etməsi ciddi narahatlıq yaradır. Onlar Beynəlxalq Cinayət Məhkəməsinin prokurorunu Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə beynəlxalq hüquq və Roma Statutu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmasını araşdırmağa çağırıblar. Qeyd edək ki, Prezident İlham Əliyev "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciət ünvanlayıb. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşib. Prezident vurğulayıb ki, Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır: "Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir. Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırıb, lakin qarşı tərəf bundan imtina edib. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır".

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, Prezidentin də dediyi kimi, Ermənistan hökuməti Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır. Hər şeydən öncə ona görə ki, Azərbaycan erməni icması ilə bu dialoqa çoxdan başlayıb. Hətta lokal xarakterli antiterror əməliyyatlarına qədər erməni icması ilə görüşlər keçirilmiş, reinteqrasiya prosesi elan edilmişdi. Erməni icmasının yekunda Azərbaycanı öz istəyi ilə tərk etməsi artıq onların öz seçimi idi:**

"Yəni erməni icmasından fərqli olaraq Qərbi Azərbaycan İcması üçün nə reinteqrasiya prosesi elan edilib, nə də hər hansı bir formatda dialoq qurulub. Yəni onlara qayıtmaq istəyib-istənilməməsi soruşulmayıb. Buna görə də Ermənistan icma ilə dialoqa başlamalı, Qərbi azərbaycanlıların hüququ təmin edilməlidir. Prezident İlham Əliyevin sözügedən fikri Ermənistanda geniş müzakirə olunmaqdadır. Əslində, İrəvanın icma ilə dialoqdan yayınmaq səbəbi aydındır. Erməni icmasından fərqli olaraq, Qərbi azərbaycanlılar bütün risk faktorlarını nəzərə alıb Ermənistana qayıtmaq istəyəcək. Bu isə Ermənistana sərf etmir. İrəvan yaxşı bilir ki, erməni əhalidən fərqli olaraq azərbaycanlılar demoqrafik baxımdan artıma meyillidir. Hətta Qərbi Azərbaycan icması ata-baba torpaqlarından didərgin düşməsəydi, bu gün Ermənistan parlamentində 10-dan çox Azərbaycan əsilli deputat olardı. Ermənistanda isə əhalinin azı 40 faizini azərbaycanlılar təşkil edərdi".

Ekspertə görə, Ermənistan Baş naziri Nikol Paşinyan Ermənistanın monoetnik ölkə imicini qorumaq istəyir. Yəni Ermənistan əhalisini xaricdən gələn və Qarabağdan köçən ermənilərin hesabına artırmağı düşünür. Hesab edirəm, Prezidentin qeyd etdiyi "Ermənistan Qərbi Azərbaycan ilə dialoqa başlamalıdır" fikri sülh müqaviləsinin şərtlərindən biri olmalıdır. 2025-ci il sülh danışıqlarında bu məsələ də müzakirə edilməli, gündəliyə salınmalıdır".

**İsmayıl**

# Makron üçün yolun sonu görünməkdədir

## Onun istefaya göndərilməsi üçün mümkün olan hər şeyi edəcəklər

**Son illərdə Azərbaycana qarşı açıq şəkildə düşmənçilik siyasəti yürüdən Fransa Prezidenti Emmanuel Makron üçün yolun sonu görünməyə başlayıb. Bunu hazırda Fransada yaşanan ciddi siyasi böhranın və ya siyasi zəlzələnin nəticələrindən də görmək mümkündür.**



**"Makron özünün əfsanəvi kumiri, Fransanın sabiq Prezidenti Şarl de Qollun aqibətini yaşamaqdan sığortalanmayıb"**

Fransanın Baş naziri Mişel Barnyenin bu gün Yelisey Sarayına gələrək istefa ərizəsini Prezident Makrona təqdim etməsi sözügedən siyasi böhranın "pik" nöqtəsidir. Bu, Fransa prezidenti üçün həddindən artıq ağrılı nəticədir. Çünki Fransa parlamentində müxalifətin baş nazirə etimadsızlıq səsverməsindən sonra, Prezident Emmanuel Makronun da istefasının tələb ediləcəyi açıqlanıb.

**Siyasi şərhçi Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, Makronun siyasi rəqibləri yaranmış əlverişli vəziyyətdən istifadə edərək, onun istefaya göndərilməsi üçün mümkün olan hər şeyi edəcəklər. Ekspertin sözlərinə görə, hərçənd ki, Fransa prezidenti heç bir halda postunu tərk etməyəcəyini bildirib. Ancaq daxili və xarici siyasətdə yol verilən ağır səhvlər Mişel Barnyenin sonunu gətirdiyi kimi Makronun da siyasi karyerasını bitirə bilər:**

"Prezidentin və baş nazirin 2025-ci ilin dövlət büdcəsinin sosial xərclər bölməsi ilə bağlı parlamentə təqdim etdiyi qanun layihəsinin müxalifət tərəfindən rədd olunması fonunda, baş nazirin sözügedən layihəni parlamentin təsdiqi olmadan qəbul etməsi səbəbilə hökumətə qarşı parlament tərəfindən etimadsızlıq qərarının qəbul edilməsi Prezident Emmanuel Makronun özünün də mövqelərini ciddi şəkildə sarsıdır. Makronun mövqelərinin zəifləməsi isə ölkədə siyasi böhranın davam etməsini şərtləndirəcək. Makronun və Barnyenin təqdim etdikləri ölkə üçün mühüm islahatların başlanğıcı kimi təbliğ olunan büdcə layihəsinin parlamentdə keçirilən səsvermə zamanı lazımi dəstəyi qazana bilməməsi bir daha onu göstərdi ki, Makronun hökumətinə olan inam, həqiqətən də, həddindən artıq azalıb. Hazırda fransızların 63 faizindən çoxu Makronun istefasını istəyir. Bu, Makronun siyasi reytinqinin aşağı düşdüyünü göstərən rekord göstəricidir. Respondentlərin əksəriyyəti hesab edir ki, Emmanuel Makron mövcud siyasi qeyri-sabitliyə, xüsusən də iyunda parlamenti buraxmaq qərarının doğurduğu siyasi böhrana görə məsuliyyət daşıyır".

**Ə.Hüseynov vurğulayıb ki, əksər fransızlar Emmanuel Makronun Yelisey Sarayını tərk etməsini istəyir:** "Makronun istər daxili siyasətdə, istərsə də xarici siyasətdə üzləşdiyi uğursuzluqlar onun hər an tarixin arxivinə göndərilməsi ilə nəticələnə bilər. Fransa liderinin yürütdüyü ksenofob, islamofob, türkəfob, irqçi, ermənipərəst siyasət bir çox ölkələrlə yanaşı, Azərbaycanla da münasibətləri tamamilə korlayıb. Makronun ermənipərəst siyasəti Fransanın öz milli maraqlarına zərbə vurdu. Onun Ermənistanı silahlandırması Cənubi Qafqaza dayanıqlı sülhün gəlişini də ləngitdi. Afrikadan qovulan Fransa Cənubi Qafqazda və Ukraynada əsas söz sahibi kimi çıxış etməyə çalışdı, lakin burada da fiasko ilə üzləşdi. Bir sözlə, Fransanın bugünkü uğursuzluqlarının səbəbi Makronun apardığı yanlış və qərəzli siyasətdir. Ona görə fransızlar çıxış yolunu Makronu istefaya getməyə çağırmaqda görürlər. Hakimiyyət ambisiyalarından əl çəkə bilməyən Makron isə səlahiyyət müddətinin sonuna qədər vəzifəsində qalmaq niyyətindədir. Lakin Makron özünün əfsanəvi kumiri, Fransanın sabiq Prezidenti Şarl de Qollun aqibətini yaşamaqdan sığortalanmayıb. Makron ədalətsiz siyasətinin bədəlini ödəyir".

**İsmayıl**



# Avropa Komissiyasının yeni tərkibi formalaşıb

## Prezident İlham Əliyev Ursula fon der Lyayenə təbrik ünvanlayıb

**Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenə məktub ünvanlayıb.**

**Məktubda deyilir:**

**"Hörmətli xanım Prezident,**

Avropa Komissiyasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi-ticari, nəqliyyat-kommunikasiya, təhlükəsizlik, xüsusilə də strateji xarakter daşıyan və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayan enerji sahəsində səmərəli tərəfdaşlıq əlaqələri mövcuddur.

Əminəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın qarşılıqlı hörmət və bərabər hüquqlar əsasında hərtərəfli inkişafı istiqamətində bundan sonra birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, Avropa Komissiyasının yeni tərkibdə qarşıdakı fəaliyyətinə uğurlar diləyirəm".

# İlham Əliyev Avropa İttifaqı Şurasının yeni Prezidentini təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti kimi fəaliyyətə başlaması münasibətilə Antonio Koştanı təbrik edib.**

Dövlətimizin başçısı təbrik məktubunda qeyd edib: "Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri geniş gündəliyə malikdir və enerji, o cümlədən yaşıl enerji, nəqliyyat, ticarət və digər sahələri əhatə edir. Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın mühüm rolu danılmazdır.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun, iqtisadi-ticari əməkdaşlığın və mədəni mübadilələrin qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da inkişaf etməsi, konstruktiv tərəfdaşlığımızın möhkəmlənməsi üçün birgə səylər göstərəcəyik".

Prezident İlham Əliyev Antonio Koştaya qarşıdakı məsul fəaliyyətində uğurlar arzulayıb.

# Ərazi iddiaları sülh gündəliyinə maneədir

## Ceyhun Bayramov Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Malta Respublikasının paytaxtı Valetta şəhərində Azərbaycan tədqiqatları üzrə III Avropa Konfransında çıxış edib.**




XİN-dən "Şərq" ə bildirilib ki, çıxış zamanı nazir Ceyhun Bayramov ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi, ölkəmizin enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar istiqamətləri üzrə təşəbbüsləri, habelə postmünaqişə dövründə bölgədə vəziyyət barədə danışıb.

Azərbaycanın ətraf mühitin mühafizəsi və iqlim dəyişmələri ilə mübarizə istiqamətinə xüsusi əhəmiyyət verdiyi diqqətə çatdırılıb. Bir sıra onlarla təşəbbüs və əhəmiyyətli tədbirlər ilə yanaşı, COP29 çərçivəsində əvvəlki iqlim maliyyəsi hədəfini 3 dəfə üstələyərək 300 milyard dollara çatdıran Bakı Maliyyə Məqsədinin qəbulu, Paris sazişinin əsas hissəsi olan 6-cı maddə üzrə danışıqların yekunlaşdırılması, İtki və Zərər Fondunun növbəti ildən fəaliyyətə başlamasının təmin olunmasının sədrliyimizin ən əhəmiyyətli uğurları sırasında olduğu qeyd edilib. İqlim dəyişmələri ilə mübarizə sahəsində ölkəmizin beynəlxalq tərəfdaş və təşkilatlarla birgə irəli sürdüyü 9 təşəbbüsdən danışan nazir, bu təşəbbüslərə geniş maraq olduğunu, çoxsaylı ölkələrin təşəbbüslərə qoşulduğu diqqətə çatdırılıb. Bununla yanaşı, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi çərçivəsində elan olunan qlobal təşəbbüslərin iqlim dəyişikliyinin müxtəlif aspektləri, o cümlədən diqqətdən kənarda qalan problemlərə vurğu edilməsi baxımından əhəmiyyəti vurğulanıb. Ölkəmizə qarşı əsassız iddia və "neft-qaz ölkəsi" bəhanəsi altında aparılan sistematik qarayaxma kampaniyasına baxmayaraq, COP29-un uğurla həyata keçirildiyi və iqlim dəyişikliyi ilə mübarizə səylərinə vacib töhfə olduğu qeyd edilib. Nazir Ceyhun Bayramov, həmçinin ölkəmizin bərpaolunan külək, su, günəş enerjisi potensialı, işğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə görülmüş işlər barədə ətraflı məlumat verib. Yaşıl enerji sahəsində əməkdaşlıqla bağlı Azərbaycan, Qazaxıstan, Özbəkistan arasında, Avropa İttifaqı, habelə Gürcüstan, Rumıniya, Macarıstanla imzalanmış strateji tərəfdaşlıqlar və layihələrin, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə birgə təşəbbüslərin, Xəzər və Qara dəniz hövzələrini birləşdirəcək yaşıl enerji dəhlizi kimi layihələrin əhəmiyyəti vurğulanıb.

Orta Dəhlizin inkişafı, Azərbaycan vasitəsilə keçən əmtəələrin həcminin artımından bəhs edən nazir Ceyhun Bayramov, nəqliyyat və kommunikasiyalar sahəsində imkanlardan istifadənin vacibliyini qeyd edib. Nazir ATƏT Nazirlər Şurası çərçivəsində aparılmış müzakirələr, təşkilat çərçivəsində mövcud problemlər və perspektivlərdən danışıb.

Nazir Ceyhun Bayramov, o cümlədən tədbir iştirakçılarını postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, itkin düşmüş şəxslərin taleyinin müəyyən olunması tədbirləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verib. Sülh müqaviləsinin layihəsi, o cümlədən delimitasiya prosesi üzrə əldə olunan irəliləyişlərə baxmayaraq, Ermənistan Konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin sülh gündəliyinə hədə törətdiyi bildirilib. Daha sonra xarici işlər naziri Ceyhun Bayramov tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

# Paşinyan siyasi iradə ortaya qoysa, sülh olacaq

## Anlaşma baş tutarsa, Ermənistanın Türkiyə ilə də münasibətləri normallaşacaq

**Azərbaycan və Ermənistanın qarşıdurma səhifəsini çevirmək və mehriban qonşuluq münasibətləri qurmaq üçün tarixi imkanının olduğu bu həlledici məqamda bütün səylər suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında münasibətlərin normallaşdırılması prosesinin başa çatmasına yönəldilməlidir.**



**"Nəticədə Ermənistan regional inteqrasiyaya cəlb olunmaqla, normal ölkəyə çevriləcək. Baş nazir də Ermənistanı normal ölkə görmək istədiyini, real Ermənistan yaratmaq planını daim vurğulayır"**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-nin Xarici İşlər Nazirləri Şurasının 31-ci iclasında çıxışı zamanı deyib. Nazir qeyd edib ki, Azərbaycanın bu məsələdə qətiyyəti dəyişməzdir və biz buna qarşılıq olaraq Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyirik: "Eyni zamanda bütövlükdə beynəlxalq ictimaiyyət, o cümlədən burada ATƏT çərçivəsində, hazırkı prosesə zərər verməmək, təxribatçı hərəkətlərdən və gərginliyin artmasından çəkinməkdən məsuldur". Ermənistan xarici işlər naziri Ararat Mirzoyan da deyib ki, Azərbaycan və Ermənistan sülh mətninin preambulası və 17 maddəsindən 15-i üzrə razılığa gəlib. O qeyd edib ki, Ermənistan Bakı ilə münasibətlərin tam normallaşmasına yönəlmiş danışıqlarda konstruktiv iştirakını davam etdirir. "Ermənistan" fraksiyasından olan deputat Anna Qriqoryan deyib ki, müxalif deputatlar Azərbaycan və Ermənistan sülh müqaviləsinin bəzi detalları ilə tanış olublar. Onun sözlərinə görə, keçən ilin sülh sazişi variantında ermənilərin Qarabağa qaytarılması ilə bağlı bir bənd var idi. Lakin bu məsələ gündəmdən çıxarılıb. Qriqoryan bildirib ki, keçən ilin müqavilə mətni variantında azərbaycanlıların Ermənistana qaytarılması ilə bağlı məsələ formulə edilməmişdi: "Lakin nəzərə almaq lazımdır ki, bu müddət ərzində müqavilə layihəsi dəfələrlə redaktə edilib və dəyişdirilib. Bunun bariz nümunəsi keçən ilin variantında olan kommunikasiyaların açılması məsələsidir. Bu məsələ sonradan müqavilədən çıxarılıb və əlavə müzakirəyə saxlanılıb". Deputatın fikrincə, eyni uğurla müqaviləyə azərbaycanlıların Ermənistana qaytarılması məsələsi də əlavə edilə bilər. Hakim "Mülki Müqavilə" Partiyasının parlament fraksiyasının katibi Artur Hovhannisyan sülh müqaviləsi layihəsi ilə bağlı Azərbaycanla danışıqların dalana dirənmədiyini deyib. Deputatın sözlərinə görə, danışıqlarda müəyyən çətinliklər olsa da, davam edir: "Mübahisə doğuran məqamlar var, onların ətrafında müzakirələr daha mürəkkəbdir və müəyyən vaxt tələb edir. Amma biz çıxılmaz vəziyyətdən danışmırıq". Erməni deputat bildirib ki, danışıqlara vasitəçilik edən beynəlxalq tərəfdaşlar Azərbaycan və Ermənistanla sülh müqaviləsini son nəticəyə çatdırmaq üçün işləri davam etdirirlər. Ermənistanın Baş naziri Nikol Paşinyan da Azərbaycanla sülh sazişinin mətninin 90 faizinin razılaşdırıldığını bəyan etmişdi.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Ermənistan hakimiyyəti Azərbaycanla sülh müqaviləsi üzrə danışıqlarda gözləmə mövqeyinə keçib. Analitik vurğulayıb ki, erməni tərəfi sərhəddə tunellər və mühəndis istehkam işləri aparır:**

"Gürcüstanda etiraz aksiyaları, Qərbin burada hökuməti devirmək planı N.Paşinyanın Azərbaycanla sülh danışıqlarında tərəddüdünə səbəb ola bilər. Avropa İttifaqı, xüsusilə Fransa aktiv şəkildə Prezident S.Zurabişvilinin vasitəsilə Gürcüstanda etiraz aksiyalarını idarə edir. Əgər inqilab olarsa, Qərbyönlü siyasi qüvvələr hakimiyyətə gələrsə, Ermənistan hökuməti sülhdən imtina edə bilər. Ermənistanın silahlanmasını bu kontekstdə dəyərləndirmək olar. Fransa Gürcüstan vasitəsilə Ermənistana tam həcmdə silahlar göndərəcək. Azərbaycana təzyiqlər etmək üçün Paşinyanın müharibəyə sövq edilməsi istisna deyil. Təbii ki, Paşinyan siyasi iradə ortaya qoyarsa, Ermənistanı eskalasiyadan kənar tuta və Azərbaycanla sülh müqaviləsinə gedə bilər. Bu halda qazanan tərəf Ermənistan olar".

**Ekspertə görə, Azərbaycanla sülh müqaviləsinin bağlanması Ermənistanın Türkiyə ilə normallaşma prosesinə səbəb olacaq:**

"Nəticədə Ermənistan regional inteqrasiyaya cəlb olunmaqla normal ölkəyə çevriləcək. Baş nazir də Ermənistanı normal ölkə kimi görmək istədiyini, real Ermənistan yaratmaq planını daim vurğulayır. Ermənistan hərbi təxribatlara əl atarsa, bu, İrəvanın ərazilər itirməsinə gətirib çıxarar. Nəzərə alaq ki, Cənubi Qafqazda siyasi-hərbi vəziyyət gərgindir və nüfuz uğrunda mübarizə həlledici mərhələyə keçib. Bölgədə yeganə güc Azərbaycandır. Qərb də rəsmi Bakı ilə hesablaşır".

**İsmayıl**



# Bakıdan Trampa jest

## Blinken oyundankənar vəziyyətə salındı

**ATƏT Xarici İşlər Nazirləri Şurasının Maltada keçirilən 31-ci iclasında Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçirilməyib.**

Ermənistan XİN-in sözçüsü Ani Badalyan erməni tərəfinin görüşə razılıq verdiyini deyib. Yayılan xəbərə görə, ABŞ Dövlət katibi Antoni Blinken ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edib. Blinken bu görüşün baş tutması üçün israrla vasitəçilik etmək istəyib. Məlumdur ki, ABŞ hazırda Azərbaycanla Ermənistan arasında sülh prosesində iştirak etmir. Blinken bu təşəbbüsü ilə ABŞ-ni yenidən sülh prosesinə daxil etmək niyyəti güdüb. Lakin Azərbaycan tərəfi Blinkenin görüşün keçirilməsi təklifindən qəti imtina edib. Səbəb isə budur ki, ümumilikdə Bayden Administrasiyası Azərbaycanla bağlı ədalətsiz, qərəzli siyasət yürüdür. Buna görə Azərbaycan ABŞ-nin sülh gündəliyində iştirakını istəmir, bunu məqsədəuyğun saymır. Yəni Azərbaycan ABŞ-nin vasitəçiliyindən imtina etdiyi üçün bu görüş baş tutmayıb.

**Bayden Administrasiyasının Ağ Evi tərk etməmişdən öncə demokratların aktivinə daha bir xal yazdırmaq məqsədi alınmadı**

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, E.Blinkenin ATƏT Xarici İşlər Nazirləri Şurasının Maltada keçirilən 31 iclası çərçivəsində Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünü keçirmək istəyi Bayden Administrasiyasının Ağ Evi tərk etməmişdən öncə demokratların aktivinə daha bir xal yazdırmaq məqsədi daşıyırdı. Ekspertin sözlərinə görə, Bakı görüşdən imtina etdi, çünki bu görüş sadəcə "topal ördəyin" xeyrinə olacaq addım idi və sülh danışıqlarının irəliləməsi baxımından nəticəsiz olacaqdı:**

"Bakı bununla sülh danışıqlarını post-Bayden dövrünə saxlamaqla Trampa jest edir. Səbəbin "Bayden Administrasiyasının Azərbaycanla bağlı ədalətsiz siyasəti" olduğunu göstərən Bakı bununla Ağ Evin gələcək administrasiyasına da "ABŞ-nin bölgədəki proseslərdə iştirakı Azərbaycanla münasibətlərdən asılı olacaq" mesajını verir".

**İsmayıl**

# Zəngəzur dəhlizinə mane olan güclərdən biri ABŞ-dir

## Vaşinqton öz maraqları naminə Ermənistanı dəstəkləyərək bölgədə yerləşməyə can atır



**ABŞ müdafiə naziri Lloyd Ostin Ermənistan müdafiə naziri Suren Papikyanla görüşüb. Bu barədə Ermənistan Müdafiə Nazirliyi məlumat yayıb.**

Görüş zamanı müdafiə sahəsində Ermənistan-ABŞ əməkdaşlığı ilə bağlı məsələlər müzakirə olunub. Lloyd Ostin qeyd edib ki, ABŞ Ermənistanın müstəqilliyini, suverenliyini və rifahını dəstəkləyir. Həmçinin iki ölkə arasında əməkdaşlığın genişlənməkdə davam etdiyini söyləyib. Nazir Ostin əlavə edib ki, ABŞ Ermənistan Silahlı Qüvvələrində islahatları davam etdirməyə hazırdır.

Tərəflər beynəlxalq və regional təhlükəsizliklə bağlı məsələləri də müzakirə ediblər.

**Politoloq Oqtay Qasımov "Şərq"ə bildirib ki, Ermənistanın bugünkü revanşist duyğularının və utopik "Böyük Ermənistan" ideyasının müəlliflərindən biri də məhz ABŞ-dir:**

"1918-ci ildə Amerikanın Prezidenti və elə Bayden administrasiyası qədər də ermənipərəst olan Vudro Vilson erməniləri kifayət qədər dəstəkləyərək onlara çox böyük vədlər verdi. O vədlərin arasında Türkiyənin 6 vilayətini Ermənistana vermək nəzərdə tutulurdu. Bunun əsasında ermənilər kütləvi qırğınlar və terror cinayətlər itörədərək azərbaycanlıları qətlə yetirməklə əraziləri təmizləyərək Ermənistan qurmağa çalışdılar. Nəticədə ABŞ, Rusiya və digər böyük dövlətlərin də dəstəyi ilə belə bir marianik dövlət quruldu. Bu günə qədər də ABŞ-nin siyasəti Ermənistana qarşı dəyişmədi. Hər zaman himayəedici münasibət oldu. Ermənistan 70 il Sovetlər Birliyinin tərkibində olsa da, ABŞ ilə əlaqələr heç kəsilmədi. Bundan başqa, 1988-ci ildə Ermənistanda baş verən zəlzələ zamanı Prezident Buşun həyat yoldaşı Barbara Buş da Ermənistana səfər etdi. Eyni zamanda ABŞ Ermənistana humanitar dəstək edirdi. 1993-cü ildə Ermənistan Dağlıq Qarabağ Muxtar Vilayətini tam şəkildə işğal etdi. Lakin ABŞ işğalçı dövlətin əvəzinə Azərbaycanı cəzalandırdı. Bununla da, 907-ci bədnam düzəliş qəbul olundu. İşğal dövründə də Amerika məhz ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Azərbaycan ərazilərinin Ermənistanın nəzarətində qalmasında maraqlı idi. Bu prosesi uzatmaqla işğalla barışmağa və reallıqları qəbul etməyə məcbur etmək istəyirdilər. Hətta ABŞ səfirliyinin siyasi məsələlər üzrə müavini Azərbaycan əgər dövlət sərhədlərinə, Gorus-Laçın sərhədinə çıxarsa, bunun dövlətin parçalanması ilə başa çatacağını demişdi. Digər tərəfdən, ABŞ 44 günlük savaşda və 2023-cü il sentyabrın 19-da antiterror əməliyyatlarına mane ola bilmədi".

**Politoloqun sözlərinə görə, ABŞ öz maraqlarını həyata keçirmək üçün Ermənistanı dəstəkləyərək, burada yerləşmək və Cənubi Qafqazda öz nüfuzunu təsis etmək istəyir:**

"Bunun üçün Rusiyanı bölgədən sıxışdırmaq və öz təsirini artırmaq niyyətindədir. Həmçinin Zəngəzur dəhlizinin açılmasına mane olan ölkələrdən biri də ABŞ-dir. Hətta Ermənistanı təhrik edərək 10 noyabr Bəyanatının şərtlərinin pozulmasını da onlar təşkil ediblər. Biz bunu Amerikanın rəsmi nümayəndələrinin dilindən dəfələrlə eşidirik. Amerikalı hüquqşünas və diplomat Ceyms Obraynın keçən ilin noyabrında senatda səsləndirdiyi fikri bir daha xatırlatmaq yerinə düşər. O zaman qeyd edildi ki, Azərbaycanla münasibətlər əvvəlki kimi olmayacaq. Yəni Amerika Azərbaycana qarşı qeyri-dost münasibətini sərgiləyəcək. Həmçinin ABŞ keçən ilin sentyabrından aktiv şəkildə Ermənistanla hərbi əməkdaşlığı açıq müstəviyə keçirib. Həmçinin Ermənistan ordusunun yenidən qurulmasında ABŞ geniş iştirak edir. Amerikalı hərbçilər Ermənistan Müdafiə Nazirliyində təlimatçı və müşavir sifəti ilə çalışırlar. Elə ABŞ-nin xeyir-duası ilə Hindistan, Yunanıstan, Fransa və İran Ermənistanın sürətlə silahlandırılması prosesində iştirak edirlər. Xüsusilə Hindistandakı silahların və hərbi texnikanın bir qismi Amerikan şirkətlərinin lisenziyası ilə istehsal olunur. Yəni Amerika birbaşa yox, dolayısı ilə Ermənistanı silahlandırmağa çalışır".

**Oqtay Qasımov vurğulayıb ki, ABŞ-nin bu cür addımları və himayədarlığı Ermənistanı sülh prosesindən yayındıran əsas əlamətlərdən və faktorlardan biridir:**

"Digər tərəfdən, ABŞ Ermənistan üzərindən bir neçə məsələni həll etməyə çalışır. Xüsusilə də son dövrlər Gürcüstanla Qərb arasında gərginlik var. Məhz Ermənistanın Qərb üçün əhəmiyyətinin artmasının səbəblərindən də budur. Bütün hallarda ABŞ Bayden administrasiyasının bu cür yanlış siyasətini davam etdirəcəksə, bölgədə gərginliyə səbəb olacaq. Bölgə ölkələri bu məsələdən mənfi yöndə təsirlənəcəklər. Eyni zamanda ABŞ-nin maraqları da ciddi şəkildə zədə alacaq. Çünki bölgənin əsas lider ölkəsi olan Azərbaycanın ABŞ-nin maraqlarını tapdalayaraq öz maraqlarını təsis etməyə çalışacaq. Bu da onun mənafeyinə uyğun olmayacaq".

**Aynur Babazadə**

# ATƏT-in fəaliyyətsizliyi çoxdan sübut olunub

## Lavrov şəraitdən yararlanaraq, sadəcə, vaxtı ilə Bakının səsləndirdiyi fikirləri təkrarladı






**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) qarşısına qoyduğu vəzifələr çərçivəsində ən azı müəyyən mənada faydalı ola biləcəyi sahələr qalmayıb. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Maltada keçirilən ATƏT Xarici İşlər Nazirləri Şurasında çıxışı zamanı deyib.**

Rusiya XİN başçısı vurğulayıb ki, elə bir sahə qalmayıb ki, ATƏT öz səlahiyyətləri çərçivəsində birbaşa suallara cavab tapmaqda ən kiçik də olsa faydalı rol oynaya bilsin. ATƏT daxilində real siyasətdə nə əməkdaşlığa, nə də təhlükəsizliyə yer qalıb. Qeyd edək ki, Lavrov Maltada ATƏT Nazirlər Şurasında Rusiya nümayəndə heyətinə rəhbərlik edir. Bu, Ukrayna müharibəsi başlayandan sonra Rusiya XİN başçısının Avropa İttifaqı ölkəsinə ilk səfəri olub.

**Tanınmış jurnalist, politoloq Fuad Abbasov "Şərq"ə söyləyib ki, Sergey Lavrovun Maltada keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlər 2020-ci ildə cənab Prezident İlham Əliyevin açıqlamalarının təkrarıdır:**

"2020-ci ildə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) üzvləri gəlib prezident ilə görüşmək istəyəndə İlham Əliyev söylədi ki, "mən sizi görüşə çağırmamışam və fəaliyyətinizə ehtiyac yoxdur". Eyni zamanda ATƏT-in Minsk qrupunun heç bir fəaliyyət göstərmədiyini bildirdi. İndi də Lavrovun mətbuat konfransında ATƏT-in Minsk qrupu haqqında ittihamlar bir daha dilə gətirilib. Digər tərəfdən, Lavrov çıxış etdiyi vaxt Ukrayna nümayəndələri məkanı tərk etdi ki, bu da Rusiyanın konfransda iştirakına protest idi. Amma Rusiya uzun illərdən bu yana Avropanın təşkil etdiyi bir konfransda iştirak etmək imkanı əldə etmişkən Avropanın qərarları və ATƏT-in fəaliyyətsizliyi haqqında çoxdan söylənilməsi lazım olan məqamları dilə gətirdi. Lavrovun danışmasında diqqət çəkən bir hissə isə Kosovanın müstəqillik qazanmasının xalqların şəxsi müqəddəratını bərpa etmək prinsipinə uyğun olaraq həyata keçirilməsini dilə gətirməsidir. İndiyə qədər heç bir xalqın şəxsi müqəddəratını təyin etmək hüququnu tanımayan Avropanın, sadəcə, Kosovanın bu hüququ əldə etdiyini vurğuladı və buna görə Qərbi ikili standartlarda ittiham etdi. Avropanın bir çox bölgəsində xalqlar müstəqillik istəyərək ayrılmaq niyyətindədir. Avropa isə öz maraqları çərçivəsində olan dövlətlərin torpaq bütünlüyünü qoyurur, marağında olmayan ölkələrin milli manafelərini heçə sayaraq tərkibindəki azlıqların suverenlik elan etməsinə yardım göstərir. Eyni ikili prinsip Azərbaycan-Ermənistan münaqişəsində də özünü büruzə vermişdi. Avropa tərəfi Qarabağda yaşayan ermənilərin "milli mənafeyini qorumaq" məqsədilə "suveren" dövlət yaratmaq arzusunu həyata keçirməyə kömək edə bilərdi. Amma Azərbaycan təşəbbüsü ələ alaraq BMT-nin və ATƏT-in qərarlarını təkbaşına həyata keçirdi".

**Şahanə Ziyad**

# Suriya bir neçə yerə parçalanacaq

## Türkiyə bölgədə, qonşularında qeyri-sabitliyin və gərginliyin olmasında maraqlı deyil




**"Əsədlə görüşmək istədik, amma müsbət cavab almadıq". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyadakı son proseslərlə bağlı danışarkən deyib. Ərdoğan bildirib ki, İdlib, Həma, Xüms və hədəf təbii Dəməşqdir:**

"Suriyada müxalif qüvvələrin bu yürüşü davam edir. Ümid edirik ki, bu yürüş problemsiz bir şəkildə davam edəcək". O həmçinin qeyd edib ki, bir müddət əvvəl Bəşər Əsədə çağırış ediblər: "Gəlin Suriyanın gələcəyini birlikdə təyin edək" dedik, təəssüf ki, bu mövzuda müsbət cavab ala bilmədik". Qeyd edək ki, silahlı hücumlara rəhbərlik edən "Heyət Təhrir əş-Şam" Hərəkatı artıq paytaxt Dəməşqi şimal və sahil boyunca birləşdirən yolun kəsişmə nöqtəsi olan Xümsə daxil olub. Müxaliflər bundan əvvəl ardıcıl hücumlarla Hələb və Həma şəhərlərini ələ keçiriblər. Dəməşqə doğru irəliləyən "Heyəti Təhrir əş-Şam" (HTŞ) qruplaşmasının Bəşər Əsəddən sonra hansı mövqedə olacağı da müzakirə mövzusudur. Qruplaşmanın lideri Əbu Məhəmməd Colani bildirib ki, hakimiyyəti Suriya Keçid Hökumətinə təhvil verməyə hazırdırlar: "Önümüzdəki həftələrdə HTŞ də daxil olmaqla, bütün silahlı döyüşçülərə mülki əraziləri tərk etmə təlimatı veriləcək. Şəhərdəki bürokratlar öz işlərini davam etdirmək üçün dəvət olunacaqlar. Şəhərin fərqli sosial və mədəni normalarına uyğun olaraq müsəlmanlar kimi, xristianlara da hörmət ediləcək". Türkiyə mediası yazır ki, müxaliflər bu müddət ərzində Hələbin ölkənin yeni paytaxtı ola biləcəyini bildiriblər.

**Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karaüz "Şərq"ə açıqlamasında deyib ki, Suriyadakı olaylar 13 ildir fərqli müstəvilərdə davam etməkdədir. Generalın sözlərinə görə, Suriyada yaşananlar səbəbi ilə təxminən 7-8 milyon suriyalı qaçqın vəziyyətinə düşdü və onların bir qismi Türkiyəyə, digərləri isə ərəb ölkələrinə getmək məcburiyyətində qaldılar:**

"Hazırda Suriya mərkəzi hökumət də daxil olmaqla bir neçə yerə parçalanmış durumdadır. Rejim Suriyanın bütün ərazilərinə nəzarət etmək imkanında deyil. 9 ildir rejimin nəzarətində olan Hələb şəhəri, Həma, Xüms bölgələri artıq müxalif qrupların əlindədir. Son dönəmdə regionda və dünyada dəyişən geosiyasi vəziyyət, Rusiyanın və İranın təsir gücünün azalması səbəbi ilə bir-birindən fərqli qruplaşmalar, təxminən 10 müxalif qrup yenidən aktivləşib. Onların içərisində Suriya Milli Ordusu və HTŞ daha güclü mövqeyə sahibdir. Bu dəstələr Tel-Rifat bölgəsini həm rejimin hərbi gücündən, həm də PKK, PYD ünsürlərindən təmizlədilər. Bu təmizlik, əslində. xaotik vəziyyət yaradır. Suriya müxalifləri arasında yer alan HTŞ həm ABŞ, həm BMT, həm də Avropa Birliyi və Türkiyə tərəfindən terror təşkilatı kimi tanınır. Bu baxımdan yeni düzəndə güc boşluğunun yaratdığı fəsadlar yeni qarşıdurma riskini də artırır".

**Y.Karaüz vurğulayıb ki, Türkiyənin yanaşması Suriyanın ərazi bütövlüyünün qorunmasından ibarətdir:**

"Ankara son bir il ərzində Əsəd rejiminə davamlı şəkildə şərtsiz görüş təklifləri göndərib. Əfsuslar ki, bu təkliflər Əsəd rejimi tərəfindən qəbul edilməyib. Yaşananlar Suriyanın bölünməsinin başlanğıcı sayıla bilər. Artıq Suriyanın neçə yerə parçalana biləcəyi müzakirə mövzusudur. Türkiyə bölgədə, qonşularında qeyri-sabitliyin və gərginliyin olmasında maraqlı deyil. Xüsusən, PKK/PYD və digər terror qruplaşmaları Türkiyənin qırmızı xəttidir. Türkiyə bölgədə terrorçu qrupların yenidən fəallaşmamasını, yeni köç dalğasının yaşanmamasını istəyir".

**İsmayıl Qocayev**

# Yeni il bayramı ərəfəsində ətin qiyməti bahalaşmayacaq

## Qiymət artımı əsasən Novruz bayramı və Qurban bayramında baş verir

**Son illərdə respublikamızda qoyunçuluğun inkişaf dinamikasında azalma müşahidə edilib. Statistikaya görə, bu ilin yanvar-sentyabr aylarında xırdabuynuzlu heyvanların sayı təxminən 7 milyondan bir az artıq olub. Bölgələrdə 3-4 aylıq quzuların kəsimə verilməsi, damazlıq genefondunun azalmasına səbəb olur.**



Oxu.Az "İTV Xəbər"ə istinadən məlumat verir ki, alıcılar da daha çox yaşı az olan quzuların ətini almağa üstünlük verdiklərini deyirlər. Onlar seçimlərini aşağı çəkili quzuların ətinin daha dadlı olması və tez bişməsi ilə əlaqələndirirlər.

Fermerlər isə bildirirlər ki, heyvanlar kiçik yaşda kəsildikdə onların maya dəyəri iqtisadi baxımdan çox baha başa gəlir.

Qəssablar isə deyirlər ki, bazarın tələblərinə uyğun davranmağa məcburdurlar: "Quzularımız Beyləqan, Ağcabədi və Bərdədən gəlir. Balaca quzulara çox tələb var. Onların çəkisinə, dadına, tamına görə balaca quzular üstünlük təşkil edir".

**Tanınmış iqtisadçı-ekspert Razi Abbasbəyli "Şərq"ə söyləyib ki, Azərbaycanda xırdabuynuzlu maldarlıq təsərrüfatlarının sayının kəskin azalmasının bir sıra səbəbləri var:**

"Birincisi, örüş ərazilərinin getdikcə azalması və son illərdə iqlim dəyişikliyi ilə bağlı örüş sahələrindəki ot örtüyünün kifayət qədər olmamasıdır. Yəni ot örtüyü demək olar ki, azalmaqdadır. Bu da xırdabuynuzlu maldarlıq təsərrüfatları üçün bəslənmə çətinlikləri yaradır. Əlavə olaraq yataq və örüş ərazilərinə təsərrüfat suyunun çatdırılmamasıdır. Su təminatı ilə bağlı örüş sahələrinin ciddi problemləri var. Bu problemlərin ortadan qaldırılması istiqamətində müvafiq dövlət proqramı qəbul olunub. Düşünürəm ki, yaxın illərdə icrasına başlanacaq. Digər tərəfdən isə örüş sahələrinin təyinatı üzrə istifadə edilməməsi halları mövcuddur. Belə olan təqdirdə xırdabuynuzlu maldarlıq təsərrüfatlarını inkişaf etdirmək çətinləşir. Məsələn, biz 2020-ci ildə Azərbaycanda 8 milyon 308 min baş qoyun var idisə, bu rəqəm 2024-cü ildə yeddi milyona qədər azalıb. Təxminən 1 milyon 300 başdan çox qoyun sayında azalma müşahidə edilib. Qoyunçuluq təsərrüfatlarının inkişaf etməsi üçün müvafiq olaraq dövlət dəstəyi proqramları da hazırlanmalıdır. Xüsusilə burada əsasən yüngül sənaye sahələrinin birbaşa qoyun təsərrüfatları ilə əlaqələndirilməsinə diqqət etməliyik. Azərbaycanda qoyun yununun dövlət sifarişi ilə alınması həyata keçirilməlidir. Bu gün Azərbaycanda qoyunçuluq təsərrüfatları olan fermerlər yunu çox ucuz qiymətə satırlar. Türkiyədə, Belarusiyada və bir sıra Azərbaycanla müqayisə edilə biləcək ölkələrdə qoyun yununun dövlət tərəfindən normal qiymətə alınmasının şahidi oluruq. Bununla bağlı sifarişlər mövcuddur. Bu, sənayenin inkişafına səbəb olan ən başlıca amillərdən biridir".

**Ekspertin sözlərinə görə, qoyunçuluq təsərrüfatlarında süd və süd məhsullarından istifadə Azərbaycanda azdır:**

"Xüsusilə də, yeni sortların yaradılması, məhsuldarlığın inkişaf etdirilməsi istiqamətində də çox az iş görülüb. İribuynuzlu maldarlıq təsərrüfatlarının yaranması, süni mayalanma, yeni sortların əldə olunması istiqamətində bir sıra dövlət proqramları icra olunub və kifayət qədər uğurla həyata keçirilməkdədir. Amma biz bunu qoyunçuluq təsərrüfatlarında müşahidə etmirik. Yəni qoyunçuluq təsərrüfatlarında nəsli qocalmış cinslərin yeni, daha məhsuldar cinslərlə əvəz edilməsi və yeni sortların yaradılması istiqamətində də mühüm addımlar atılmalıdır. Lakin bunun da şahidi olmuruq. Bu səbəbdən də qoyunların sayında ciddi şəkildə azalma müşahidə olunur. Digər bir tərəfdən baytarlıq təminatı problemi də var. Məsələn, qoyunların infeksiya və yaxud da digər xəstəliklərdən kütləvi tələfolma halları baş verir. Bu zaman fermerlər baytarlara müraciət edərkən çətinliklə üzləşirlər. Dərman təminatında, dərmanların keyfiyyətsiz olması ilə bağlı bir sıra çətinliklər mövcuddur. Eyni zamanda yemin qiymətinin baha olması və bu kimi kifayət qədər problemlər var ki, bu da qoyunçuluq təsərrüfatlarının zəifləməsinə gətirib çıxarır. Bayramqabağı ətlərin qiymətinin qalxması müşahidə oluna bilər. Hesab edirəm ki, keçici bir dövr üçün az da olsa, bahalaşma olacaq. Lakin adətən Yeni il bayramı ərəfəsində ətin qiyməti bahalaşmır. Əsasən ətin qiymətində Novruz bayramında və Qurban bayramı dönəmlərində bahalaşma baş verir. Qış aylarında bazara qoyun daha çox təklif olunur. Çünki qışda kənd fermerlərinin gəlirləri azalır. Bu zaman onlar qoyunların bir qismini satmaq üçün bazara çıxarırlar və bazarda təklif çoxalır. Tələb isə dəyişmir, əvvəlki səviyyədə qalır. Bu baxımdan da qiymətlərin bahalaşacağını gözləmək doğru olmaz. Düşünürəm ki, ciddi bahalaşma baş verməyəcək".

**Fidan Həmişəyeva**

**Hökumət komandası deyir ki, növbəti seçkilərdə onun siyahısına Ermənistan Baş nazirinin xanımı Anna Akopyan başçılıq edəcək. Bu barədə "Hraparak" qəzeti məlumat yayıb.**



"Onun hiperaktivliyinə səbəb olan da məhz budur. Hökumətdə onun ofisi, işçi heyəti və piar komandası var. O, nəinki yerli və xarici qonaqları qəbul edir, müxtəlif tədbirlər təşkil edir, həm də heç bir vəzifəsi olmadan dövlətin kadr siyasətini həll edir", - məlumatda deyilir.

# Akopyanın hakimiyyətə gətirilməsi mümkündür

## Ancaq erməni cəmiyyəti onun siyasi meydana atılmasını təqdir etməyəcək

Mülki Müqavilə Partiyasının üzvlərinin sözlərinə görə, son kadr dəyişiklikləri onun ssenarisinə uyğun aparılıb.

**Politoloq Tofiq Abbasov "Şərq"ə bildirib ki, erməni rəhbərliyində bir çox xaotik cərəyanlar özünü əks etdirir:**

"Xarici sektorda Ermənistan hökuməti Nikol Paşinyan başda olmaqla bütün imkanları və rıçaqları kənar qüvvələrə verib. Amma daxildə prosesləri idarə edir. Çünki onun gündəliyində olan əsas məsələ hakimiyyəti saxlamaqdır. Həmçinin qarşıdan gələn yeni parlament seçkilərində də Nikol Paşinyan öz tərəfdarları ilə mövqelərini də bərkitməyə çalışacaq. İndi isə populyarlığı aşağı düşür. Yəni avantürist hərəkətləri, uğursuz eksperimentlər həm Paşinyanın, həm də onun partiyasının nüfuzunu aşağı salır. Eyni zamanda vəziyyət göstərir ki, Ermənistan xaosdan hələ də yaxa qurtara bilmir. Əslində, iqtisadi zəmində bir az canlanma var. Çünki Rusiyaya qarşı sanksiyaların tətbiq edildiyi zaman Ermənistan bu fürsətdən istifadə edir ki, öz problemlərini həll etsin. Lakin bu, müvəqqəti bir canlanmadır. Əsaslı şəkildə ölkəyə investisiya gəlmir, infrastrukturu yeniləmək üçün imkanlar çox məhduddur. Ümumiyyətlə, Ermənistanda antiböhran proqramı yoxdur. Amma bunların hamısının üstü ört-basdır edilir. Paşinyan deyir ki, biz inkişaf edirik. Hətta bir neçə dəfə xarici ölkələrin də nümayəndələri bildiriblər ki, Ermənistanda 12 faiz civarında illik artım var. Ermənistan bir ucdan silahlanır, digər tərəfdən, daxili siyasətdə yerdəyişmələr edir. Əsasən də hüquq-mühafizə orqanlarında, güc strukturlarında tez-tez yerdəyişmələr edir ki, heç kəs bu mövqelərdə dərin köklər salmasın. Yəni bu, özünəməxsus bir texnologiyadır ki, qruplarda cazibə qüvvəsi bir o qədər güclü olmasın. Çünki əsas məqsəd özünün əlində qalan ixtiyardır".

**Tofiq Abbasov: "Əslində, Paşinyan xanımının söhbətini ortaya atmaqla öz nüfuzunu möhkəmləndirmək istəyir"**

**Politoloq deyib ki, Anna Akopyanın fəaliyyət sahələri bəlli deyil:**

"Guya Paşinyanın xanımı hər şeylə maraqlanır. Amma onun özünün ixtisası, savad göstəriciləri, bacarıq imkanları hələ də həvəskar səviyyəsində qalır. Ola bilər ki, ərinin vasitəsilə son illər ərzində haradasa siyasi məktəbə yiyələnir, dərslər alır və ya hər hansı bacarıqlar nümayiş etdirir. Ancaq bunlar nə dərəcədə dövlət idarəçiliyində yararlı sayıla bilər? Hər şey ola bilər. Çünki nahaq yerə Nikol Paşinyan həm özü, həm də onun komanda yoldaşları ölkədə demokratiyanın dəhşətli dərəcədə zühur etməsini dilə gətirmirlər. Onlar bildirirlər ki, guya biz tolerant cəmiyyət yaratmışıq. Burada insanların özünüifadə etmək imkanları hədsiz dərəcədə inkişaf edib. Digər tərəfdən, Anna Akopyanın hakimiyyətə gəlməsi mümkündür. Amma inanmıram ki, Ermənistan cəmiyyəti Anna Akopyanın bu qisimdə meydana atılmasını təqdir etsin. Ermənilər nə desə də, onlarda demokratiya yoxdur. Faktiki olaraq, onlar mühafizəkar və arxaik düşüncədə olan cəmiyyətdir. Erməni xalqı Anna Akopyanın bu iddialarını belə yaxına buraxmazlar. Bəlkə də, heç hipotetik şəkildə də buna qarşıa bilməzlər. Çünki Nikol Paşinyanın özünə qarşı da çoxsaylı iddialar var ki, rəhbərliyi öyrənmək prosesini hakimiyyətin üstündə edir. Belə olduğu təqdirdə onun xanımı da özündən betərdir. Elə bir idarəçilik üslubu olmaz ki, Anna Akopyan Paşinyan üçün imtiyazlı vəziyyət yaratsın və ya ölkə ağır durumdan çıxsın. Əslində, Paşinyan xanımının söhbətini ortaya atmaqla öz nüfuzunu möhkəmləndirmək istəyir".

**Aynur Babazadə**

# Ermənistanın KTMT-yə qayıtması mümkünsüzdür

## Rusiya isə sakitdir və İrəvanın təhlükəsizliyinin ondan asılı olduğunu inandırmağa çalışır

**Ermənistanın KTMT-yə borcu ola və onu iki il ödəməyə bilər, indi 2024-cü il üçün borc var, müddəti 2025-ci ilin sonunda başa çatacaq.**



Bunu Rusiya XİN rəhbərinin müavini Aleksandr Pankin deyib. O bildirib ki, Ermənistan bu borcu iki il ödəməyə bilər. Əlavə müvafiq qərarlar qəbul ediləcək. KTMT-nin istənilən üzvü borclana bilər. Elə hallar olub ki, başqa ölkələr də borclanmağa məcbur olub.

**Siyasi şərhçi Elmir Səftərov "Şərq"ə söyləyib ki, Nikol Paşinyan Ermənistanın Rusiyadan uzaqlaşmasını Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qarabağda savaşmaması ilə əlaqələndirir:**

"Rusiya Prezidenti Vladimir Putin isə noyabrın sonunda Ermənistan-KTMT əməkdaşlığı ilə bağlı verdiyi açıqlamalarda müdaxilənin yalnız ölkəyə xarici təcavüz edilməsi zamanı ola biləcəyini ifadə etmişdi. Rusiyanın söz sahibi olduğu hərbi təşkilatdan uzaqlaşmaqla bərabər, Ermənistan Baş naziri Nikol Paşinyan Avrasiya İqtisadi Birliyi (AİB) sammitinə də ev sahibliyi etməyəcəyini təsdiqləyib. Təbii ki, Ermənistanın bu addımı Rusiya ilə əlaqələri tamamilə kəsdiyi anlamına gəlməsə də, başı Ukraynadakı savaşa qarışan, həmçinin Yaxın Şərqdə nüfuzu zədələnən Moskvadan daha çox mənfəət və güzəştlər əldə etmək niyyəti də ola bilər".

**Ekspert qeyd edib ki, ümumilikdə V.Putinin fikirləri, daha sonra Nikol Paşinyanın KTMT-də açıq şəkildə narazılıq ifadə etməsi ciddi məsələ kimi görünsə də, Rusiya sakitdir və İrəvanın təhlükəsizliyini KTMT-dən başqasının təmin etməyəcəyini inandırmağa çalışır:**

"Misal olaraq da Qərbi Ukraynanın indiki vəziyyətə gəlməsində səbəbkar göstərir. Amma bu situasiya Ermənistanın KTMT-yə qayıtmasını artıq getdikcə çətinləşdirir, hətta mümkünsüz edir. Təşkilatda iştirak etməsə də, KTMT-yə borcu olan İrəvan düşünür ki, Rusiya Ermənistana çatdırılmayan silahlara görə ödədiyi vəsaitin bir hissəsini keçə bilər.

Bundan əlavə, Qərbin Rusiyanın aktivlərini dondurub müsadirə etməsi fonunda Ukraynada apardığı müharibə Moskvanın KTMT-yə borcu olan Ermənistana münasibətdə təzyiq göstərməsini təxirə salır".

**Şahanə Ziyad**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi



# Təhlükə hələ sovuşmayıb

## Bəzi xarici dairələr, hətta dövlətlər insanların dini inancından istifadə edərək radikal qruplar yaratmağa çalışırlar

**Son illərdə, hətta ən yüksəksəviyyəli beynəlxalq tədbirlərdə belə din ifadəsi terrorçuluq, separatizm, radikalizm kimi terminlərlə yanaşı istifadə olunur. Halbuki ictimai şüurda təhdid kimi qəbul edilən bu anlayışların heç birinin dinlərə aidiyyəti yoxdur. Heç bir din insan həyatına, sağlamlığına qəsdi təqdir etmir. Heç bir dini kitabda müharibələrin, insan faciəsi ilə nəticələnən qanlı toqquşmaların təşviqi ilə bağlı fikirlər yoxdur.**

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Xaçmaz şəhərində keçirilən "Dini müstəvidə ideoloji təhlükəsizlik: çağırışlar və perspektivlər" mövzusunda konfrans bildirilib.

Tədbirdə dövlət-din münasibətlərinin tənzimlənməsi, vətəndaşların dini etiqad azadlığının təmin olunması, dini fanatizm, radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə effektiv mübarizə, zərərli dini ideologiyaların ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində müzakirələr aparılıb.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev, Milli Məclisin deputatı Fazil Mustafa, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, ali və orta ixtisas təhsili müəssisələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, həmçinin din xadimləri, dini icma sədrləri iştirak ediblər.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev konfransı giriş sözü ilə açaraq, Azərbaycanın keçdiyi sürətli inkişaf yoluna diqqət çəkib. Bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və qətiyyəti, rəşadətli ordumuzun gücü, eləcə də xalqımızın birliyi sayəsində qazandığımız tarixi qələbə nəticəsində vaxtilə işğal altında olan, düşmən tərəfindən viran edilən torpaqlarımızda bu gün həyat yenidən canlanır, məcburi köçkünlərimiz öz yurdyuvalarına qayıdır. Azərbaycanın ev sahibliyi etdiyi COP29 konfransında əldə edilən nəticələrin əhəmiyyətini vurğulayan E.Rzayev mötəbər tədbirin ölkəmizin artan nüfuzuna daha bir töhfə qatdığını qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında bildirib ki, din və ideoloji təhlükəsizlik bir-birinə sıx bağlı mövzulardır: "Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Prezident İlham Əliyevin ardıcıl siyasəti nəticəsində möhkəmləndirilmiş ideoloji təhlükəsizlik modeli daxili və xarici amillərin unikal harmoniyasına əsaslanır. Biz indi elə bir mürəkkəb tarixi mərhələdə yaşayırıq ki, təhlükəsizlik məsələsi bütün cəmiyyətlərin, ümumilikdə qlobal dünyanın ən aktual probleminə çevrilib. Etnik və dini fərqliliklər ayrı-ayrı ölkələrdə ictimai münasibətlərin xarakterini müəyyənləşdirir. Bəzilərində bu, qütbləşməni, az-az hallarda isə mədəniyyətlərarası dialoqu təşviq edən faktor kimi qəbul edilir. Bu mənada, tolerantlıq, multikulturalizm, inanclara, millimənəvi dəyərlərə, mədəni irsə hörmət kimi ali bəşəri dəyərlər üzərində qurulmuş münasibətlər sistemi Azərbaycanda milli həmrəyliyin əsas komponentini təşkil edir. Bizi münaqişə və ziddiyyətlərin adi həyat normasına çevrildiyi ölkələrdən fərqləndirən başlıca amil də elə bundan ibarətdir".

Ramin Məmmədov qeyd edib ki, konfransın mövzusu dinin ideoloji təhlükəsizlikdə roluna dair geniş və əhatəli müzakirələr aparmaq imkanı verir. "Bəzi dairələrin və qüvvələrin dindən öz siyasi məqsədləri üçün istifadə cəhdlərinə qarşı birlikdə mübarizə aparmalıyıq. İnancından, dini əqidəsindən asılı olmayaraq insanlara daha aydın izah etməliyik ki, hər kəsin dini etiqad azadlığının ən etibarlı təminatını verə biləcək yeganə qüvvə dövlətdir. Dövlətin varlığı yalnız vətəndaşların sosial-iqtisadi rifahı üçün deyil, həm də mənəvi ehtiyaclarını daha rahat şəkildə qarşılaması üçün vacibdir", - deyə komitə sədri söyləyib.

Azərbaycan Respublikası Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Dövlət Komitəsinin regionlarda keçirdiyi konfransların əhəmiyyətindən bəhs edərək bildirib ki, maarifləndirmə tədbirləri həm də Azərbaycandakı dövlət-din münasibətlərinin real vəziyyətini müzakirə etmək baxımından xüsusi rola malikdir.

Ölkəmizdə dövlətin dinə münasibətinin loyallıq prinsiplərinə əsaslandığını deyən deputat vətəndaşların dini etiqad azadlığının Konstitusiya və müxtəlif qanunlarla təmin edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, dünyanın müxtəlif yerlərində dindən əsl məqsədinə uyğun istifadə edilməyərək siyasiləşdirilməsinə cəhdlərin göstərilməsi, dini ehkamların zamanın tələbinə uyğunlaşdırılmaması problemləri mövcud olsa da, respublikamızda Prezident cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində tolerantlıq, multikulturalizm, vəhdət ənənələri həyat tərzimizə çevrilib. Deputat həmçinin dini radikalizmə qarşı mübarizədə hər kəsin yaxından iştirak etməsinin, bu sahədə maarifləndirmə işinin ardıcıl və məqsədyönlü şəkildə aparılmasının zəruriliyindən danışıb.

Qeyd edək ki, regional konfrans işini "Şimal bölgəsində dini durum: mövcud vəziyyət və qarşıda duran vəzifələr" və "Ənənəvi İslam: tarixi təcrübə və müasir reallıqlar" mövzularında panel sessiyalarla davam etdirir.

**Regionlarda keçirilən dini maarifləndirmə tədbirlərini əhəmiyyətli hesab edən Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Tural İrfan "Şərq"ə açıqlamasında deyib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi səmərəli iş aparır və insanların dini cəhətdən sağlam maariflənməsi üçün müxtəlif səpkilərdə tez-tez konfranslar, tədbirlər təşkil edir:**

"Şübhəsiz ki, insanların dini inancından istifadə edərək bəzi xarici dairələr, hətta dövlətlər ölkəmizdə zaman-zaman təxribat cəhdləri ediblər, radikal qruplar yaratmağa çalışıblar. Bu təhlükələr yenə də var. İnsanların dini bilgisinin kəm olduğu yerlərdə, bəzən də xurafat yayaraq əslində isə bunun daxilində xarici siyasi, ideoloji maraqları yeritməyə çalışırlar. Odur ki, həm sağlam din xadimləri yetişməli, həm də sağlam təbliğat aparılmalıdır. Məzhəbçilik, radikalizmə meyillər, xurafatçılıq tam aradan qalxmalıdır. Odur ki, bu yolda təkcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi deyil, bütün aidiyyəti qurumlar çalışmalı, hətta vətəndaşlar özləri də fərdi şəkildə mübarizə aparmalıdırlar. Fanatizm və zərərli çağırışlar, ekstremizm hər zaman sağlam cəmiyyət üçün təhlükədir. Bunun cücərib baş qaldırmaması üçün belə konfransların əhəmiyyətli dərəcədə rolu var. Arasıra mən də iştirak edirəm və hiss edirəm ki, faydası böyükdür".

**İlahiyyatçının fikrincə, zərərli təbliğat vaxtilə münbit şəraitdə geniş şəkildə illərlə aparıldığı üçün hazırda bunun qarşısını qısa müddətdə almaq çətindir:**

"Xaricə bağlılıq, təqlidçilik kimi təhlükəli amillər hələ də qalır. Məscidlərdə din xadimi təyinatı Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin səlahiyyətinə keçənə qədər xaricdə, əsasən də İranda təhlükəli təlim görmüş şəxsləri Qafqaz Müsəlmanları İdarəsi kütləvi şəkildə dini məkanlara təyin etmişdi. Bu şəxslər də ölkədə dini vəziyyəti xaricə bağlılıq, xurafatçılıq, radikalizm, məzhəbçilik səviyyəsində xarab etmişdilər. İndi şükür Allaha ki, Dövlət Komitəsi bunun qarşısını alır, milli ruhda, dövlətçi, əsasən də yerli təhsil almış kadrları yerləşdirir. Hesab edirəm ki, bu kimi konfransların rolu və əhəmiyyəti böyükdür, təsiri də hər zaman hiss olunur. Cəmiyyət düzgün maariflənir və ölkədə dini sahənin özbaşına olmadığını, yaxud Qafqaz Müsəlmanları İdarəsi kimi yarıtmaz qurumun ümidinə buraxılmadığını hiss edir. Dövlət Komitəsinin fəaliyyətinə əhali arasında rəğbət və ümidlər çox böyükdür.

Effektiv dini fəaliyyət və sağlam dini təbliğat üçün sağlam din xadimləri davamlı şəkildə yetişməlidir ki, bunu da Azərbaycan İlahiyyat İnstitutu və İlahiyyat Kolleci təmin edir. Tolerantlıq, vəhdət, elmi islam, islam əxlaqının tərənnümü və əyani şəkildə təbliği, tədrisi kimi sahələrdə ölkəmiz əksər müsəlman ölkələrinə nümunə ola bilər. Həm genetik olaraq, həm də təbliğat nəticəsində ölkəmizdə yüksək səviyyədə dini tolerantlıq hökm sürür. Bu vəziyyətin mövcudluğunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və onun keçirdiyi əhəmiyyətli konfransların, tədbirlərin əvəzsiz yolu var".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Marketlər sağlam rəqabəti boğur

## Ağartı məhsullarının, südün, yağın, pendirin qiymətinin qalxdığı faktdır

"Süd, qaymaq, qatıq, şor, nehrə yağı, ümumiyyətlə, ağartı məhsullarının qiymətində baş verən artımın obyektiv səbəbləri var". Bunu "Şərq"ə açıqlamasında iqtisadçı Xalid Kərimli deyib. Son günlər ağartı məhsullarının qiymətində artım müşahidə edildiyi xəbərlərini şərh edən iqtisadçı bildirdi ki, süd məhsullarının bahalaşmasının əsas səbəbi heyvandarlıqda xərclərin artması, həmçinin ölkəyə idxal olunan süd məhsullarının qiymətindəki bahalaşmadır:

- Ümumdünya Ərzaq Təşkilatının verdiyi məlumata görə, son 1 ildə süd məhsullarının qiyməti 25 faizədək yüksəlib. Dünyada süd məhsullarının bahalaşması Azərbaycana da təsir göstərir. Çünki idxal məhsullarının qiyməti yerli bazarın qiymətinə də təsir edir. Həm yerli fermerlərin xərclərinin artması, həm də idxal qiymətlərinin bahalaşması süd məhsullarının qiymətini artırır.

Onu da xatırladaq ki, bölgələrdə süd məhsullarının qiymətində artım müşahidə edilmir. Südün litri əvvəlcə 1 manat idisə, hazırda da 1 manata satılır, qatığın qiyməti də həmçinin artmayıb. Necə olur ki, məsələn, Bərdədə litri 1 manata satılan süd paytaxtda 2 manat 40, 2 manat 70 qəpiyə satılır?

**"Necə olur ki, məsələn, Bərdədə litri 1 manata satılan süd paytaxtda 2 manat 40, 2 manat 70 qəpiyə satılır?"**

**X.Kərimli qeyd etdi ki, mağazalar ev təsərrüfatlarından mal almırlar:**

- Marketlərdə satışa çıxarılan şirkət məhsullarıdır. Bölgədəki qiymətlərin şəhərdəki qiymətlərdən ciddi asılılığı yoxdur. Kənd toyuğu, kənd yumurtasının qiyməti də broyler məhsullarının qiymətindən fərqlidir. Bunlar fərqli məsələlərdir. Bölgələrdə məhsulun mövcud qiyməti ümumi bazar qiymətlərini əks etdirmir. Ağartı məhsullarının, yağın, pendirin qiymətinin qalxdığı faktdır. Bunun da obyektiv səbəbləri var. Doğrudur, marketlər məhsulun qiymətinin üzərinə marja qoyur. Məhsulun alınması və satılmasından əldə edə biləcəyi gəlirdən daha artıq gəlir əldə etməyə çalışır. Bu məsələdə monopoliya var, bu, inkar edilmir. Marketlər sağlam rəqabəti boğur. Amma süd məhsullarının qiymətinin dünyada son 1 ildə 25 faizədək artdığı da faktdır. Başqa bir səbəb, nəqliyyat xərclərinin artmasıdır. Fermer istehsal etdiyi məhsulu yayda hansı qiymətə şəhərə gətirirdisə, həmin qiymətə gətirə bilmir artıq. Nəqliyyat xərcləri artdıqda məlum idi ki, kənd təsərrüfatı məhsullarının qiyməti də qalxacaq. Digər bir səbəb satıcının da pulun alıcılıq qabiliyyətini hesablayaraq məhsulu daha baha qiymətə satmağa çalışmasıdır. Çünki məsələn, deyək ki, 1 manatın alıcılıq qabiliyyəti 6 ay əvvəlki səviyyədə deyil. Pulun alıcılıq qabiliyyəti aşağı düşürsə, satıcılar da məhsulun qiymətini qaldırır.

**Məlahət Rzayeva**

# "Azadlığ"ın fəaliyyəti dayandırılıb

## Əhməd Oruc: "Məhkəmənin qərarı ilə bağlı kasasiya şikayəti veriləcək"

**Ədliyyə Nazirliyinin Azadlıq Partiyasının ləğv edilməsi üzrə müraciəti əsasında məhkəmə prosesi keçirilib. Bakı Apellyasiya Məhkəməsində hakim Ceyhun Məmmədovun sədrliyi ilə keçirilən prosesdə qərar qəbul edilib. Qərara əsasən, müraciət təmin olunub və partiyanın fəaliyyətinin dayandırılması barədə qərar qəbul olunub.**



Qeyd edək ki, Azadlıq Partiyası 2005-ci ildə dövlət qeydiyyatına alınıb. Partiya ötən il Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmayıb. Ləğv olunmuş partiyanın sədri Əhməd Orucdur.

**Partiyanın məhkəmə qərarı ilə ləğv edilməsinə münasibət bildirən Əhməd Oruc "Şərq"ə açıqlamasında deyib ki, sənədləri Ədliyyə Nazirliyinə 1 il 4 ay bundan öncə təqdim ediblər. Onun sözlərinə görə, Nazirlik əvvəlcə sənədlərin yerində olduğunu və partiyanın qurultaya hazırlıq görə biləcəyini açıqlayıb. Lakin sonradan təşkilatın özünü buraxması məsələsi gündəmə gəlib. Rəhbərlik isə bununla razılaşmayıb və partiyanın özünü buraxmayacağını bildirib:**

"Ötən müddət ərzində Ədliyyə Nazirliyi rəsmi heç bir məlumat vermədi. Halbuki uzağı, bir aya cavab verilməliydi. Guya o zaman təqdim etdiyimiz üzvlərin siyahısını müəyyənləşdirmək mümkün olmayıb. Bu kimi arqumentlərlə məhkəməyə müraciət olunub. Bir günün içində Apellyasiya Məhkəməsi Azadlıq Partiyasının qapadılması ilə bağlı qərar qəbul etdi. Ancaq biz fəaliyyətimizi davam etdirmək fikrindəyik. Məhkəmənin qərarı ilə bağlı kasasiya şikayəti veriləcək".

**Ə.Oruc vurğulayıb ki, partiyanın olub-olmaması onun siyasi fəaliyyətini dayandıra bilməz:**

"Partiya sədri olmaq mənə heç bir üstünlük vermirdi. Həm maddi, həm də digər imkanlar baxımından adi insanlardan fərqsiz olmuşuq. Sadəcə, burada təqdimat məsələsi var. İndiyə kimi "Azadlıq Partiyasının sədri Əhməd Oruc" kimi təqdim edirdilər. İndi də "qeydiyyatı ləğv olunmuş Azadlıq Partiyasının sədri" kimi təqdim edəcəklər".

**İsmayıl**

# "Təkzibolunmaz həqiqət: özlərini "erməni" adlandıran aramanilər"

## Əsərdə Ermənistanın riyakar tarixçilərinin, dünyanı da aldatmağa çalışan erməni lobbisinin yalanları tarixi sənədlərlə ifşa olunur

**”Anadolu yarımadasının şərqində yerləşən və ”erməni” tarixçilərinin ”Erməni” dağları adlandırdıqları Böyük sıra dağlarının, əslində, qədim adı tamam başqadır. Tərtib edilmiş xəritələrdə bu ərazinin ”Böyük Ermənistan” adlandırılması isə tamamilə yanlışdır. Çünki tarixdə belə bir dövlət olmayıb”. Bu ifadələr araşdırmaçı yazar, tarixçi alim Nurməhəmməd Azərinin ”Təkzibolunmaz həqiqət: özlərini ”erməni” adlandıran aramanilər” kitabındandır.**

Əsərdə Ermənistanın riyakar tarixçilərinin, ”Böyük Ertmənistan” xülyası ilə başı dumanlanmış, dünyanı da aldatmağa çalışan erməni lobbisinin yalanları, iftiraları tarixi sənədlərə istinad edilərək ifşa olunur. Müəllif qeyd edir ki, ”erməni” mənşəli tarixçilər beynəlxalq ictimaiyyəti riyakarcasına çaşdıraraq şərqi Anadoluda qədim zamanlarda Böyük Ermənistan dövlətinin mövcud olduğunu, bu dövlətin ərazisindəki sıra dağlarının ”Erməni” dağları adlandırıldığını və bu barədə beynəlxalq səviyyədə çoxlu sayda coğrafi və siyasi xəritələrin nəşr edildiyini bildirirlər. ”Doğrudur, belə xəritələr tərtib edilərək nəşr olunub. Lakin qeyd edək ki, bu xəritələr ”erməni” tarixçiləri və coğrafiyaşünasları tərəfindən saxtalaşdırılaraq tərtib edilib və heç də həqiqəti əks etdirmir. Həqiqət isə belədir; Anadolu yarımadasının şərqində yerləşən Böyük sıra dağlarının vadisi geniş otlaq sahələrinə və axar kiçik çay hövzələrinə malik olmaqla maldarlıq və əkinçilik təsərrüfatı üçün çox əlverişli idi. Bu sıra dağlarının vadisində əkinçiliklə məşğul olanlara, iri və xırda buynuzlu mal-qara otaran yerli türkdilli tayfaların çobanlarına bu vadidə müxtəlif yırtıcı heyvanlar hücum edir, mal-qaranı parçalayır, bir çox hallarda isə mal-qaranı otaran çobanların özləri belə bu hücumların qurbanına çevrilirdilər. Odur ki, mal-qaranı səhər sübh çağı otlağa çıxaran çobanlar və əkin sahələrinə gedən əkinçilər öz yaxınlarına ”günəş batana qədər qayıtmasam ara məni” (yəni ”axtar məni”) deyirdilər. Məhz bu səbəbdən bu sıra dağlarının adı e.ə. minilliklər ərzində el arasında ”Ara məni” dağları deyə adlandırılıb. Yunanıstanın şərq çarlıqlarında, xüsusilə Fessaliya və Makedoniyada, həmçinin şimal-şərq ərazisi olan Frakiyada basqınçılıq və qarətlə məşğul olduqlarına görə yunanlar tərəfindən e.ə. XIII-XII əsrlərdə bir çox hallarda silah gücünə sıxışdırılaraq qovulmuş tayfalar miqrasiya edərək Kiçik Asiyaya köçüblər. Kiçik Asiyada isə artıq əsasən əkinçiliklə məşğul olmaqla oturaq həyat tərzi sürən digər tayfalar: friqlər, xettlər, urartlar, luvilər, hürritlər, assurlar, xaldeylər və s. məskunlaşmışdılar. Bu baxımdan Yunanıstandan sıxışdırılıb çıxarılan köçəri həyat tərzi sürən bu tayfaların əksəriyyəti Ara məni sıra dağlarının ətəyində məskunlaşmaq qərarına gəlmişlər. Bu tayfalar arasında hətta qədim Misirdən, Dəclə və Fərat çaylarının vadisindən də miqrasiya nəticəsində köçüb gələn tayfalar da var idi. Ətraf ərazilərdə yaşayan türkdilli tayfalar bu gəlmə tayfaları məskunlaşdıqları coğrafi məkanın adı ilə ”aramənilər” adlandırıb. ... Coğrafi məkanın adı ilə aramәni adlanan, sonralar isə əsrlər ötdükcə araməni sözü tədricən təhrif olunaraq ”erməni” adı ilə əvəzlənmiş bir etnos meydana gəlib. Təsadüfi deyil ki, yüz əsrlər ötməsinə baxmayaraq, bu günə kimi ”erməni” ”erməni”yə ”məni” sözünü ixtisara salmaqla ”Ara!” (yəni həmyerlim) deyə müraciət edir. Tarixçilərin və etnoqrafların araşdırmaları nəticəsində müəyyən edilib ki, tarixdə ”erməni” və ya arime adlı ayrıca bir tayfa olmayıb, əksinə, bu etnos onlarla müxtəlif tayfaların birləşməsi nəticəsində meydana gələn, genefonunda riyakarlıq və nekrofiliya olan (yəni qurbanını əzabla öldürməkdən həzz alan) bir etnosdur. Hətta bu etnosun xüsusiyyətləri haqqında mənşəcə ”erməni” olan şair Yeqişe Çarens vaxtilə demişdi: ”Riyakarlıq biz ”erməni”lərdə hələ ana bətnində olarkən yaranır!”. Müəllif əsərində müasir ”erməni”lərin əcdadlarının Cənubi Qafqaza Avropadan gəlmələr olduğunu tarixi faktlara əsasən qeyd edir: ”XIX əsrin sonu XX əsrin əvvəllərində rus etnoqrafiya nomenklaturasında coğrafi baxımdan ”erməni”lərin Qafqaz məkanına gəlmə etnos olduğu bildirilir. Rus qafqazşünasları açıq-aşkar bildirirlər ki, ”erməni”lər Qafqaza gəlmələrdir. Müasir ”erməni”lərin e.ə. XIII-XII əsrlərdə Kiçik Asiyaya miqrasiya etmiş çoxsaylı tayfaların törəmələri olduqlarını XIX əsrin tanınmış rus qafqazşünası U.Şopen də bu faktı təsdiqləyir. Yunan coğrafiyaşünası və səyyahı Strabon (e.ə. I əsr) Qafqazda yaşayan tayfaların adlarını qeyd edərkən tərtib etdiyi siyahıda gürcülərin qədim əcdadları olan iberiyalıları, azərbaycanlıların qədim əcdadları olan albanları, abxazları, çerkesləri, avarları, ləzgiləri aborigen (yerli) tayfalar kimi göstərir. Bu siyahıda ”erməni” adı yoxdur! ”Erməni” tayfasının adına frako-friqiya tayfalarının siyahısında da rast gəlinmir. Bu, bir daha sübut edir ki, ”erməni” etnosunun adı ayrıca bir mono-tayfanın adı olmayıb, əksinə, Araməni dağının vadisində məskunlaşmış müxtəlif tayfaların birləşməsindən yaranmış yığımlı, ümumi bir addır. Rus qafqazşünası V.E.Veliçko XX əsrin əvvəllərində apardığı tədqiqatların nəticəsinə görə yazırdı: ” ”erməni”lərin mənşəyi məlum deyil!”. Yunan tarixçisi Ksenofon (e.ə. 400 il) Anadolu yarımadasına səyahət edərkən ”erməni” mənşəli tarixçilər tərəfindən sonralar ”Böyük Ermənistan” adlandırılacaq ərazinin əhalisinin türkdilli olduğunu bildirib. Erməni alimi Patkanov isə bildirir ki, ”Ermənıyyə” adı dövlət adı deyil, məhz coğrafi məkanın adıdır. Herodot özünün ”Tarix” əsərində yazırdı: ” fars çarı Kserks (e.ə. 485-465-ci illər) Yunanıstana qarşı hərbi yürüş edərkən (e.ə. 480-ci il) artıq aramənilər adlanan tayfaların başçıları Kserksə bu yürüşdə öz hərbi köməklərini təklif ediblər. Əvəzində isə qalibiyyətli müharibədən sonra Kserksdən vaxtilə yunanlar tərəfindən sıxışdırılaraq qovulduqları ərazidə (Frakiyada) onlara özlərinin dövlətlərini yaratmaqda yardım göstərilməsini istəyiblər. Danışıqlar qarşılıqlı razılaşma ilə bitib”. Tarixi mənbələrdən məlum olduğu kimi Kserk məhz bu riyakar, yaltaq, casusluqla məşğul olan tayfa üzvlərinin gizli dağ yolunu nişan verməsi sayəsində cəsur spartalı döyüşçülərə qalib gələ bilib. Müəllif qeyd edir ki, ”demək, məntiqə görə müasir ”erməni”lərin tarixi qan düşmənləri türklər yox, yunanlardır!”. XVII əsrdə Osmanlı imperiyasına səyahət etmiş, 1584-cü ildə Qərbi Ukraynada anadan olmuş əslən ”erməni” mənşəli olan Simeon Lexasi də bunu təsdiq edir. O, özünün ”Yol qeydləri” adlı əsərində yazır: ” ”erməni”lərin qan düşmənləri yunanlardır. Onlar ”Erməni çarlığı”nı məhv etmişlər. Bilmirəm nə səbəbə görə yunanların biz ”erməni”ləri görən gözləri yoxdur?!”. Simeon Lexasinin sözlərindən aydın olur ki, adı çəkilən, tarixi məlum olmayan ”Erməni çarlığı”nın Cənubi Qafqaza heç bir aidiyyəti yoxdur”. Müəllif əsərində müasir ermənilər tərəfindən Eçmiədzin - əslində isə vaxtilə türk dilində Üç müəzzin adıyla tanınan kilsənin Qaraqoyunlu hökmdarı Cahan şah tərəfindən erməni-qriqorian yepiskopluğuna hədiyyə edildiyini yazır: ”Bir çox yüzilliklər ərzində ”erməni-qriqorian yepiskopluğu”nun öz yerini dəfələrlə dəyişməsi izaholunmazdır. Dvinadan, Armonka, Axtomardan Sebastiyaya, sonra isə Aniyə - yəni Cənubi Qafqaz sərhədlərindən kənarda yerləşən sərhədlərə köçürülüb. Yalnız son mərhələdə ”erməni-qriqorian yepiskopluğu” Azərbaycanın qərb ərazisində yerləşən və 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şah (1438-1467) tərəfindən ”erməni”lərə hədiyyə edilmiş Üç müəzzində məskunlaşıb. Qaraqoyunlu şahının bu addımı xristian dünyasında özünə hörmət qazanmaq məqsədi daşıyırdı. Lakin erməni-qriqorian yepiskopluğuna edilən bu əvəzsiz yaxşılığın əvəzi tamam əksinə oldu. Üç müəzzinin adını dəyişərək Eçmiədzin adlandıran və artıq özünə dayaq nöqtəsi əldə etmiş erməni-qriqorian yepiskopluğu islam dininə qarşı münasibətdə mövcud olan Qərb-Şərq qarşıdurmasında (Qərb dövlətlərinin Şərq ölkələrinə qarşı XI-XIV əsrlərdə xaç yürüşlərini xatırlayın) bir vassal kimi Qərb dünyasına mənsub olduğunu nümayiş etdirərək Qaraqoyunlu dövlətinə qarşı antimüsəlman təbliğatı aparmağa başladı”.

Tarixi faktlar baxımından təkzibolunmaz həqiqətlərin üzə çıxarıldığı əsər oxucular və tarixçilər üçün dəyərli mənbə hesab edilə bilər.

**Məlahət Rzayeva**









## "Nar"ın dəstəyi ilə Azərbaycan dili və ədəbiyyatı üzrə beynəlxalq simpozium keçirilib

**Ölkənin ən sərfəli mobil operatoru olması ilə yanaşı, sosial layihələri də xüsusi diqqət mərkəzində saxlayan ”Nar” ”Azərbaycan dili və ədəbiyyatı araşdırmaları” adlı I Beynəlxalq Elmi Simpoziumun keçirilməsinə dəstək olub.**

Xəzər Universiteti və digər nüfuzlu ali təhsil müəssisələrinin təşkilatçılığı ilə baş tutan tədbir Azərbaycan dili və ədəbiyyatının inkişaf etdirilməsi və türk dünyasında daha geniş tanıdılması məqsədi ilə təşkil edilib.

İki gün davam edən simpozium Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğız Respublikasının və Şimali Kipr Türk Respublikası kimi ölkələrin alimlərini bir araya gətirərək dil və ədəbiyyat üzrə aktuallığını qoruyan mövzuları müzakirəyə çıxarıb. Tədbirdə ümumilikdə 100-ə yaxın elmi tədqiqatçı müxtəlif mövzulu tezislərlə həm əyani, həm də onlayn sessiyalarda çıxış edib. Həmçinin, simpozium çərçivəsində milli dramaturgiyamızın görkəmli nümayəndəsi Cəfər Cabbarlının anadan olmasının 125 illiyinə həsr olunmuş elmi, musiqili bədii proqram təqdim edilib.

”Nar” ana dilimizin təbliği və mədəni irsimizin qorunmasını öz sosial məsuliyyət strategiyasının ayrılmaz hissəsi hesab edir. Simpoziumun dəstəkçisi olaraq, ”Nar” bu sahədə gələcək elmi araşdırmalara, milli dəyərlərin təbliğinə və dilimizin beynəlxalq arenada möhkəmlənməsinə töhfə verməkdən qürur duyur. Qeyd edək ki, ”Nar” təhsil, mədəniyyət və sosial layihələrdə fəal iştirak edərək Azərbaycan cəmiyyətinin dayanıqlı inkişafına dəstək göstərməyə davam edir.

**Elan**

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı texniki kollecinin 1-ci kurs tələbəsi Səfiyev Elgün Semur oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Texniki Universitetinin nəzdində Bakı texniki kollecinin 3-cü kurs tələbəsi Əliyeva Aytən Əlzaman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əzizov İlqar Tofiq oğluna məxsus Bakı şəhəri, Yeni Yasamal 2-ci yaşayış massivi 3 A ünvanında inşa olunan ”Nər-Gün” MMC-yə məxsus yaşayış binasının zirzəmisində avtomaşın saxlamaq üçün17.1 sahənin müqaviləsi itdiyi üçün etibarsız sayılır.



## Büdcədən əlavə 100 milyon manat ayrılacaq

### Daha çox ipoteka kreditlərinin təklifi mümkün hala gəlir

**”Gələn il ipoteka kreditlərinin verilməsi üçün dövlət büdcəsindən əlavə 100 milyon manat ayrılacaq”.**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, növbəti il İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalı 1 milyard 168 milyona manata çatacaq: ”Bu, həmçinin daha çox vətəndaşlarımızın ipoteka kreditindən faydalanaraq mənzil almaq imkanının yaranması deməkdir. Dövlət büdcəsindən ayrılan bu vəsaitlər sosial ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün istifadə olunur. Praktik olaraq, hər maliyyə ilində güzəştli ipoteka kreditlərinin verilməsi üçün ayrılmalar olur və həmin ilin payızında vəsait nizamnamə kapitalına əlavə olunur. Məhkəmənin qərarı ilə bağlı kasasiya şikayəti veriləcək. Parlamentari qeyd edib ki, bütövlükdə, fondun nizamnamə kapitalı artdıqca, daha çox ipoteka kreditlərinin təklifi mümkün hala gəlir: ”Bu, eyni zamanda güzəştli şərtlər ilə kreditlərin portfelini də genişləndirir. Yəni daha çox vətəndaşlarımız üçün güzəştli ipoteka krediti götürmək imkanı yaranır. İndiyədək fond tərəfindən 52 min 59 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin məbləği isə 3 milyard 276 milyon manatdan çoxdur”.

**İsmayıl**

## Gələcəkdə xərçəng şişi törədə bilər

### Professor: “Qaynar maddələr qida borusunu və mədəni termik dəyişikliyə məruz qoyur”

**”İsti içkilər, şorbalar, eləcə də acılı yeməklər mədə və qida borusu xərçənginə səbəb ola bilər”.**

Oxu.Az-ın news.ru-ya istinadla verdiyi məlumata görə, bu barədə rusiyalı həkim-onkoloq, kimyaterapevt Maqomed Sulimanov xəbərdarlıq edib.

Onun sözlərinə görə, belə qidalar selikli qişaların xroniki travmasına səbəb olur.

”Qida borusu və ya mədə xərçənginin risk faktorlarından biri isti içkilər, şorbalar, acılı, duzlu qidaların qəbulu nəticəsində bu orqanların selikli qişasının xroniki travmasıdır. Xroniki travma xroniki iltihablanmaya səbəb olur, bu da öz növbəsində bədxassəli şişin inkişafı riskini daşıyır”, - deyə həkim vurğulayıb.

Onkoloq bunu istisna etmək üçün sağlam həyat tərzinə riayət etməyi məsləhət görüb.



”Bunun üçün isti və acılı yeməklərdən tamamilə imtina etmək lazım deyil. Lakin yeməyə daha az istiot əlavə etmək və onun bir qədər soyumasını gözləmək lazımdır”, - deyə Sulimanov sözlərini yekunlaşdırıb.

**Professor Adil Qeybulla ”Şərq”ə açıqlamasında deyib ki, çox yüksək temperaturda, mayeləri qidaları qəbul etmək məqsədəuyğun deyil:**

”Mayeni və ya qidanı ağız boşluğunda saxlaya bilmiriksə, qəbul etmək də məqsədəuyğun deyil. Çünki ağız boşluğunda hissiyyat var. Lakin qida borusunun artıq üçdə birindən aşağısında hissiyyat yoxdur. Qaynar maddələr qida borusunun aşağı hissəsini, mədəni termik dəyişikliyə məruz qoyur. Ona görə də isti, qaynar çay içənlər, qaynar yeməyə üstünlük verənlər bunu nəzərə almalıdırlar. Bunun özü də gələcəkdə ezofagitlərə, qastritlərə, qida borusunun xroniki yanıqlarına və gələcəkdə xərçəng şişinin inkişafına gətirib çıxara bilər. Qidanın orta temperaturu otaq temperaturundan bir az yüksək olmalıdır. Yəni qidanın ağız boşluğunda saxlanması mümkün temperaturda olmalıdır. Yalnız qida və maye o halda udula və qəbul edilə bilər. Bunu mütləq nəzərə almaq lazımdır”.

**Fidan Həmişəyeva**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2829



# Qripin dərmanı…

Soğan və qatıq

**Qış mövsümü soyuqdəymə, qrip demək olar hər kəsin qapısını "döyür".**

İmmuniteti zəif olanlar xəstəlikləri ağır keçirir, gec sağalırlar. Mütəxəssislər məsləhət görür ki, xəstəliyin qarşısı xəstələnməzdən əvvəl alınmalıdır. Payız-qış mövsümündə orqanizmin möhkəmlənməsinin qayğısına qalınmalıdır. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, xəstələnmə halında da ondan mümkün qədər tez xilas olmağın müxtəlif həll yolları var. Bu həll yollarından biri qatıq və soğan qarışığıdır. Soğan və qatıqda sağlamlığımız üçün çoxlu faydalı komponentlər var və bu ikisi bir araya gətirilərək istehlak edilərsə, orqanizmin güclənəcəyinə şübhə yoxdur. Qatıq və soğan qarışığı infeksiyalardan qorunmaq üçün unikaldır. Xüsusilə soyuqdəymənin başlanğıcında bu ikisini birlikdə istifadə etmək enerjinin bərpasına və xəstəlikdən qorunmağa kömək edir. Sadəcə, orta boy bir ədəd soğanı kiçik şəkildə doğrayıb istədiyiniz miqdarda qatıqla qarışdıra bilərsiniz. Əgər soğanın dadı sizi narahat edirsə, fərqli dad almaq üçün bu qarışığa azacıq zeytun yağı və bibər əlavə edə bilərsiniz.

**Məlahət**

# Mask 5 aydır anasına göstəmədiyi oğlunu çiynində gəzdirdi



**Milyarder, "Tesla" və "SpaceX" şirkətlərinin qurucusu, "X" sosial şəbəkəsinin sahibi İlon Mask uzun aradan sonra oğlu X-?-12 ilə görüntülənib.**

Axşam.az xəbər verir ki, o, bu addımı keçmiş sevgilisi, oğlunun anası, müğənni Qraymsın övladlarını 5 aydır görmədiyini açıqladıqdan sonra atıb. Mask oğlu ilə yeni Hökumətin Effektivliyi Departamentinə həsr olunmuş yığıncağa qatılıb. O, oğlu çiyinlərində məclisə gəlib.

*Qeyd edək ki, Maskla Qraymsın 3, milyarderin isə ümumilikdə 12 övladı var.*

# Hazal Kaya Şerlok itini itirib

Məşhur aktrisa kədərini dilə gətirib və paylaşıb



**Bir müddətdir ekranlardan uzaq düşən Hazal Kaya 10 il əvvəl övladlığa götürdüyü Şerlok itini itirib. Məşhur aktrisa "Ağır yas prosesi keçirirəm" deyərək kədərini dilə gətirib və paylaşıb.**

İnstaqram hesabında itinin fotosunu yerləşdirən aktrisa, "Canım oğlum. Sən dünyanın ən sərt, ən yaramaz, ən gülməli, ən sevən, ən əyləncəli iti idin məncə. Tvitterdə elanını gördüyüm sanki dünən idi. Sənin evə gəlməyini həyəcanla gözləyirəm. Səni gözləmədiyim bir gün belə olmayacaq, Şerlok. Tək təsəllim birlikdə keçirdiyimiz 10 il, birlikdə böyütdüyümüz ailəmiz, minlərcə gözəl an. Xoşbəxt ol, mənim gözəl oğlum" mesajıyla Şerlok üzüntüsünü dilə gətirib.

Sosial mediada yeni paylaşımında Hazal Kaya bunları da qeyd edib: "Ağır bir yas prosesi keçirəm. Digər böyük itkilərimin də ağrıları başladı".

**Turan**

# Mahsun Kırmızıgülün anası 99 yaşında dünyasını dəyişib

Faike Arık vəsiyyətinə görə Diyarbakırda son səfərinə yola salınacaq



**Məşhur müğənni Mahsun Kırmızıgülün anası Faike Arık 99 yaşında dünyasını dəyişib.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, Faike Arık vəsiyyətinə görə, bu gün Diyarbakırda son səfərinə yola salınacaq.

Mahsun Kırmızıgül bildirib ki, "Əziz anam Faike Arıkın itkisindən çox kədərlənirəm. Cənazəsi Diyarbakır Səlahəddin Əyyubi məscidində günorta namazından sonra torpağa tapşırılacaq".

*Xatırladaq ki, Mahsun Kırmızıgül 1998-ci ildə "Yıkıldım" mahnısına çəkdirdiyi klipdə anası Faike Arıkla kamera qarşısına keçib.*

**Aynur**

# Övladını 1 milyona satmaq istəyən ata saxlanıldı



**Rusiya İstintaq Komitəsinin əməkdaşları Orenburqda azyaşlı oğlunu satmaq istəyən şəxsi saxlayıb.**

Bu barədə Rusiya mətbuatı məlumat dərc edib.

"21 yaşlı müttəhim 2023-cü il təvəllüdlü uşağı 1,5 milyon rubla (25 299 AZN) satmağa cəhd edib", - KİV komitəyə istinadən yazıb.

Həmin şəxs "Yetkinlik yaşına çatmayanların köməksiz vəziyyətdə alveri" maddəsi ilə saxlanılıb. Oğlan xəstəxanadadır, onun həyatı və sağlamlığı üçün təhlükə yoxdur. (Unikal)

Bildirilir ki, 1,5 milyon rubla satmağa çalışdıqları bir il yarımlıq körpənin anası da həbsxanadadır.



# Dünyada unikaldır

Evlilik meyvə-tərəvəz kimi satılır





**Dünyanın harasında olursunuzsa olun, bölgənizdə qurulmuş bazarla rastlaşa bilərsiniz. Bu, meyvə-tərəvəz bazarı, antikvar bazarı, geyim və parça bazarı ola bilər. Bununla belə, Çinin Şanxay şəhərində qurulan "Evlilik bazarı" dünyada unikaldır. Bəs, ictimai parkda qurulan bu bazarda nə baş verir?**

"Şərq" "Milliyet.com.tr"-yə istinadən xəbər verir ki, Şanxayda bazarda satılanları indiyə qədər görməyiniz mümkün deyil. Gündəlik həyatınızı asanlaşdıracaq bir çox şeyi marketlərdən ala bilərsiniz, bəs həyat yoldaşınızı marketlərdən seçə bilərsinizmi? Milyonlarla insanın həyat yoldaşını, valideynlərinin isə gəlin və ya bəy seçdiyi bu bazarı ziyarət edən hər kəs heyrətlənir. Şəhərin ən önəmli bazarlarından biri olan bu məkanda insanlar gələcəklərini alırlar.

Həyatınız boyu sizi müşayiət edəcək həyat yoldaşınızı seçərkən bir çox kriteriyanız ola bilər. Üstəlik, kimsə ilə tanış olmağın bir çox yolu var. Bəzi insanlar evləndikləri insanı seçməyi məqsədəuyğun hesab etsələr də, ənənəvi dəyərlərinə möhkəm bağlı qalanlar ailələrinin tövsiyələrinə əməl edərək razılaşdırılmış evliliyi seçə bilərlər. Evliliyi Anadolu torpaqlarına xas bir ənənə kimi şərh edənlərdənsinizsə, istiqamətinizi Asiya qitəsinə, Çin torpaqlarına çevirməlisiniz. Çünki Çin mədəniyyətinin bir parçasına çevrilmiş çoxdankı ənənəyə görə Şanxayda nikah bazarı keçirilir.

İlk dəfə 2005-ci ildə bir neçə ailənin bir araya gəlməsi ilə başlayan bu ənənəyə görə, ailələr bazara gələrək uşaqları üçün həyat yoldaşı seçirlər. Hər bazar günü eyni məkanda saat 09:00-da keçirilən bazarda orta yaşlı valideynlər övladları üçün ideal həyat yoldaşı axtarışına çıxırlar.

Bəs sistem necə işləyir? Övladına uyğun həyat yoldaşı seçmək istəyən valideynlər övladının məlumatlarından ibarət banner hazırlayır və bu bannerlər üçün ayrılmış çətirlərin üzərinə asırlar. Övladlarına həyat yoldaşı seçməyə gələn ailələr bu bannerləri oxuyur və ideal namizədlərin əlaqə məlumatlarını

## Minlərlə ailə küçədə çətirli stendlər açıb

götürərək övladlarının yanına aparırlar. Bazara gələn valideynlər, ümumiyyətlə, övladlarının sosial bacarıqlarının zəif olduğunu, düzgün insan seçməkdə o qədər də bacarıqlı olmadığını düşünür və bu məsələdə səlahiyyət sahibi olduqlarına inanırlar.

Şanxaylı valideynlər uşaqlarının yaşını, təhsilini, işlərini, maaşlarını, şəxsiyyətlərini və gözləntilərini əks etdirən CV bannerləri yaradırlar. Qarşı tərəfdən gözləntilərin də yazıldığı bu pankartda xüsusilə sakit, gözəl, varlı və ya məsuliyyətli insanlar axtarılır.

Bu bazara gedən ailələr adətən uşaqlarının xəbəri olmadan həyat yoldaşı seçmə mərasimi təşkil edirlər. Bəyəndikləri namizədlərin əlaqə məlumatlarını övladlarına göndərirlər.

Şanxayda qurulan bu bazar əvvəlcə sevimli görünsə də, "Sciences Po" və "Zhongshan" Universitetlərində sosiologiya üzrə təhsil alan sosioloq Sun Peidonqa görə, ailələrin uşaqlarının həyatına bu qədər müdaxiləsi dərin və ciddi sosial problemin xəbərçisidir. Peidonun sözlərinə görə, valideynlər bura təkcə uşaqları üçün həyat yoldaşı tapmaq üçün deyil, həm də ənənəvi ailə quruluşunu yaşatmağa çalışmaq üçün gəlirlər. Bazarın qəhrəmanı olan valideynlər sərt kommunist həyat tərzində böyüdükləri üçün bu mədəniyyəti yaşatmaq üçün övladlarında xoşbəxtlik qurmaq səlahiyyətinə malik olduqlarını düşünürlər. Valideynlər deyirlər ki, uşaqlarının şəxsi CV-lərini çətirdə təbliğ edərkən övladlarının sevgi tapmaqla çox məşğul olmasından narahatdırlar. Doğru insanı tapana qədər əl çəkmədən bazara gələn valideynlər maddi sərvətin və xoşbəxtliyin bir-birinə bağlı olduğuna inanırlar.

**Turan**



# 8 yaşlı Narinin faciəsi…

Anası da qətldə iştirak edib



**Diyarbakırın Bağlar bölgəsi, Tavşantəpə məhəlləsində itkin düşmüş, axtarışların 19-cu günündə üzəri 30, 25 və 20 kilo ağırlığında 3 ədəd daşla örtülmüş və kolların arasında gizlədilmiş cansız cəsədi dərə yatağında çuval içində tapılan Narin Güranın qətli ilə əlaqədar istənilən cəza bəlli olub.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Diyarbakır 8-ci Ağır Cəza Məhkəməsində dövlət ittihamçısı cinayətdə şübhəli bilinən 12 nəfərdən 4-ü barəsində ömürlük həbs cəzası istəyir. Onlar Narinin anası Yüksel Güran, əmisi Səlim Güran, böyük qardaşı Enes Güran və cəsədi dərəyə apardığını etiraf edən qonşuları Nebzat Bəxtiyardır. Diyarbakır cümhuriyyət prokurorluğu tərəfindən hazırlanan iddianamədə Narinə məxsus DNT və saç nümunəsi avtomobilində tapılan əmisi Səlim Güran, anası Yüksel Güran və böyük qardaşı Enes Güran və cəsədi dərəyə apardığını etiraf edən qonşuları Nevzat Bəxtiyara məxsus olduğunun müəyyənləşdiyi bildirilir. İş üzrə ilk məhkəmə iclasından sonra məhkəmə aralıq qərarını elan edərək təqsirləndirilən şəxslərin həbs-qətimkan tədbirinin davam etdirilməsi barədə qərar çıxarıb və iclası dekabrın 26-dək təxirə salıb. Prokuror mahiyyəti üzrə verdiyi rəydə təqsirləndirilən şəxslər, Narinin əmisi Səlim Güran, anası Yüksel Güran, böyük qardaşı Enes Güran və cəsədi daşıyan Nevzat Bəxtiyara qəsdən adam öldürmə cinayətinə görə ağırlaşdırılmış ömürlük həbs istəyib. Rəydə iştirakın tərifi sözügedən təqsirləndirilən şəxslərin hərəkətləri baxımından qiymətləndirildikdə bildirilir ki, müştərək icraatda hər bir iştirakçı əməl üzərində birgə hökmranlıq qurulduğu üçün "təcavüzkar" mövqeyindədir və "Hərəkət üzərində birgə hökmranlığın olub-olmadığını müəyyən edərkən cinayət ortaqlarının cinayətin icrasında rolları müəyyən edilir. cinayət və onların töhfələrinin əhəmiyyəti nəzərə alınmalıdır. Rəyə görə, istintaq və təqib müddətində tapılan və təqdim edilən bütün kamera görüntüləri, ifadə protokolları, məhkəmə tibb hesabatları, hadisə yeri araşdırma hesabatları, HTS qeydləri, HTS daraldılmış əsas analiz hesabatı və bununla bağlı dəstəklənən ekspert rəyi, cinayət hesabatları, milli cinayət bürosu hesabatı, görüşmə qeydləri, cib telefonlarının araşdırılması nəticəsində əldə edilən məlumatlar, hüquq-mühafizə orqanlarının hesabatları birlikdə qiymətləndirildikdə şübhəlilər Enes Güran, Səlim Güran, Yüksel Güranın hadisə baş verən gün birgə fəaliyyətdə olduqları, qətlin qarşısını almaq üçün heç bir cəhddə bulunmadıqları müəyyən edilib. Onlar heç bir maneə törədəcək iradə nümayiş etdirməyərək, fikir və əməl vəhdətində hərəkət edərək, bildikləri həqiqəti üzə çıxarmadıqları üçün Narin Güranın qətlinin motivinin dəqiq müəyyən edilməməsinə, bununla da, iştirak etmək iradələrinin ortaya çıxmasına səbəb olublar. Digər tərəfdən, Diyarbakırda öldürülən 8 yaşlı Narin Güranın ovuc və əlində tapılan tüklər və saç nümunələri ilə bağlı Ədliyyə Tibb Təşkilatının hesabatı istintaq materiallarına əlavə edilib.

**Məlahət**

# Narıncı pişiklərin sirri nədir?

60 illik araşdırma üzə çıxardı



**Genetiklər 60 illik araşdırmalardan sonra pişiklərdə narıncı rəngin sirrini açıblar. Araşdırma nəticəsində məlum olub ki, od rəngli lələklər DNT-nin əskik olması səbəbindən yaranıb.**

"Şərq" xəbər verir ki, ev pişiklərində narıncı kürkün sirri nəhayət genetiklər tərəfindən açılıb. İki müstəqil araşdırma, pişiklərin od rəngli kürkünün, genomlarının zülalları kodlaşdırmayan bir bölgəsində çatışmayan DNT parçasından qaynaqlandığını ortaya qoyub.

Stanford Universitetinin genetiki Qreq Barşın rəhbərlik etdiyi tədqiqat qrupu pişiklərin dəri hüceyrələrində tapılan Arhgap36 adlı genin narıncı tüklü pişiklərdə digər pişiklərə nisbətən 13 dəfə çox RNT istehsal etdiyini aşkar edib. Bununla belə, bu genin zülal kodlayan hissəsindəki mutasiya əvəzinə, genin ifadəsinə təsir edən delesiya (əskik DNT ardıcıllığı) aşkar edilib.

DNT ardıcıllığında 5 kilobaza (kb) çatışmazlığı var ki, bu da genin fəaliyyətinə təsir edir və narıncı rəng yaradır.

Tədqiqatlar həmçinin cinslər arasında narıncı rəng fərqini də izah edib. Mutasiya olunmuş gen X xromosomunda yerləşdiyi üçün erkək pişiklərdə yalnız bir, dişilərdə isə iki say var. Bu, dişi pişiklərin xəzində "tısbağa qabığı" və ya "rəngli" naxışlara səbəb olur, gen təsadüfi olaraq aktivləşdirilir və ya deaktiv edilir.

Nadir hallarda, hər iki X xromosomu mutasiya daşıdıqda, dişi pişiklərdə tamamilə narıncı xəz olur. Erkək pişiklərdə yalnız bir X xromosomu olduğundan, rəngi eyni dərəcədə narıncıdır.

Tədqiqatçılar narıncı rəng piqmentinin pişiklərin ümumi sağlamlığına və intellektinə mənfi təsir göstərmədiyini vurğuladılar. Bununla belə, məlumdur ki, "Arhgap36" geni digər heyvanlarda anormal fəaliyyət göstərərsə, inkişafda problemlər yarada bilər. Pişiklərdə bu gen yalnız piqment istehsal edən melanosit hüceyrələrində həddindən artıq ifadə olunur.

Stanford komandası izah edir ki, tısbağa qabığı naxışlı pişiklər və harlequin pişikləri arasındakı fərq ağ ləkə mutasiyası ilə bağlıdır. Bu mutasiya piqment hüceyrələrinin bədənin daha geniş ərazisinə yayılmasına imkan verir.

Yaponiyanın Kyuşu Universitetindən Hidehiro Tohun rəhbərlik etdiyi ikinci komanda da oxşar nəticələr əldə edib. O bildirib ki, "Arhgap36" geni piqmentlərin rəngini tünd qəhvəyidən narıncıya keçirərək narıncı xəz yaradır.

Pişiklərin narıncı kürkü ev heyvanlarının genetikası ilə bağlı araşdırmalarda əsas mərhələ hesab olunur. Təxminən 10 min il əvvəl insanlarla birlikdə yaşamağa başlayan pişiklərdəki rəng dəyişkənliyinin genetik fonunu anlamaq bu sevimli dostların tarixinə işıq salır.

**Turan**